RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 200 (8223) CÜMƏ AXŞAMI, 12 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İki sosial paket - iki yeni rekord

## Prezident İlham Əliyevin davamlı islahatları nəticəsində dövlətçilik tariximizdə ilk dəfə olaraq minimum əməkhaqqı və pensiya yaşayış minimumunu üstələyir

**Dövlətlərin demokratiklik əmsalı təkcə sosial-iqtisadi inkişaf göstəriciləri ilə deyil, həm də hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir.**

Xalqın böyük etimad göstərərək mandat verdiyi hakimiyyət fəaliyyəti ilə daim ictimai milli maraqları doğrultmaqla, vətəndaşın mənafeyinə hesablanan sosial-iqtisadi islahatları həyata keçirməklə böyük rəğbət qazanır. Azərbaycanda da sosial sahə üzrə görülən işlər bir tərəfdən dövlətin gücünü, digər tərəfdən həyata keçirilən siyasətin effektivliyini, reallaşdırılan islahatların yüksək praktiki nəticələr verdiyini göstərir.

Ölkəmizin Avropa İnkişaf və Əməkdaşlıq Təşkilatının son hesabatlarına əsasən sosial sahədə ardıcıl şəkildə islahat aparan dövlətlər sırasında qərarlaşması, əlbəttə ki, uğurlu göstəricidir. Əgər ölkəmizdə sosial sahədə həyata keçirilən tədbirlərə nəzər yetirsək, aydın olar ki, ilin əvvəlində aparılan islahatlar daha çox pensiya, müavinət və təqaüdlərin artımına yönəldilib və 4,2 milyon nəfəri əhatə edib. Ümumilikdə isə iki sosial paketin birlikdə əhatə dairəsi əhalinin 40 faizini təşkil edir.

Prezident İlham Əliyevin iki sosial paketinin maliyyə tutumu isə 5,3 (bu il üçün 2,3 milyard, gələn il üçün isə 3 milyard) manat təşkil edir. Artımlara gəldikdə isə onu deyə bilərik ki, bir ildə ölkədə maaşlar, pensiyalar, müavinət və təqaüdlər 2 dəfə artırılıb.

Bu ilin əvvəlində minimum əməkhaqqı 130 manat idi. Birinci islahat paketi çərçivəsində həmin məbləğ 180 manata, sentyabrın 1-dən isə 250 manata çatdırıldı. Bu, minimum əməkhaqqının orta yaşayış minimumunu 40 faiz üstələməsi deməkdir. Əgər birinci islahat paketi nəticəsində minimum əməkhaqqı təqribən 600 min nəfəri əhatə etmişdirsə, ikinci paket nəticəsində bu, 950 min nəfərə çatdı. Onun 600 min nəfəri dövlət, 350 min nəfəri özəl sektorda çalışır. Artımların miqyasını təsəvvür etmək üçün bəzi rəqəmləri xatırlatmağa ehtiyac var. Birinci islahat paketi nəticəsində muzdla çalışanların 40 faizinin əməkhaqqında artım edilmişdisə, son islahat paketi onların 63 faizini əhatə edəcək. Ümumilikdə iki paketin icrası ilə Azərbaycanda minimum əməkhaqqı 93 faiz artıb. Əgər 2018-ci ildə ölkəmizdə orta əməkhaqqı təxminən 540 manat idisə, son artım nəticəsində həmin rəqəm 625 manata yaxın olacaq.

Onu da əlavə edək ki, Azərbaycanda əməkhaqqı ödənişi vahid tarif cədvəli və vəzifə maaşları üzrə aparılır. Vahid tarif cədvəlinin 19 dərəcəsi var.

*Ardı 4-cü səh.*

## Azərbaycan-Rusiya ikitərəfli münasibətləri uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeni Kuyvaşevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, Azərbaycanın Rusiyanın ayrı-ayrı vilayətləri, o cümlədən Sverdlovsk vilayəti ilə əlaqələrinin genişlənməsinin məmnunluq doğurduğu bildirildi.

Söhbət zamanı Azərbaycanla Sverdlovsk vilayəti arasında ticarət dövriyyəsinin 85 faiz artması iqtisadi əməkdaşlığın möhkəmləndirilməsinin yaxşı göstəricisi kimi dəyərləndirildi, ticarət dövriyyəsinin daha da artırılması üçün lazımi potensialın mövcud olduğu vurğulandı. Eyni zamanda, Bakıda keçiriləcək biznes forumun əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu. Son illər Rusiyadan Azərbaycana gələn turistlərin sayının durmadan artdığı vurğulanaraq, Sverdlovsk vilayəti ilə turizm sahəsində əlaqələrin inkişaf etdirilməsinin önəmi bildirildi.

Görüşdə əməkdaşlığın müxtəlif istiqamətləri, o cümlədən sənaye, maşınqayırma sahələrində birgə layihələrin həyata keçirilməsi, sərmayə qoyuluşu, mədəniyyət, təhsil sahələri ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi.

## *Türkiyə XİN:* Ermənistanın status-kvonu saxlamaq cəhdləri qəbuledilməzdir

Ermənistanın Azərbaycanın Dağlıq Qarabağ və onun ətraf bölgələrini işğalda saxlaması Cənubi Qafqazda regional sabitliyin və inkişafın qarşısını alan ən böyük çətinlikdir.

Türkiyənin Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən açıqlamada bildirilir ki, Türkiyə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, beynəlxalq hüquq və BMT-nin qətnamələri çərçivəsində, sülh şəraitində və ATƏT-in Minsk qrupunun fəaliyyəti çərçivəsində həll edilməsini dəstəkləyir.

Türkiyə tərəfi Ermənistanın qanunsuz olaraq işğal etdiyi Dağlıq Qarabağ bölgəsində 2019-cu ilin 8 sentyabr tarixində keçirilən "yerli özünüidarəetmə seçkilərini" tanımır. Ermənistanın beynəlxalq hüquqa zidd olan status-kvonu saxlamaq cəhdləri keçmişdə olduğu kimi, bu gün də qəbuledilməzdir və bütün bunların sülh danışıqlarına fayda verməyəcəyini açıq şəkildə ifadə edirik.

## Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində, Berd rayonunun Ayqepar, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam və Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Nəmirli, Tağıbəyli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Ən yaxşı arı cinsi və bal Azərbaycana məxsusdur

### Beynəlxalq ekspertlərin fikri belədir

Hələ eramızdan əvvəl IX-VIII əsrlərdə Cənubi Qafqazda arıçılıqla məşğul olmuşlar. Azərbaycanda da arıçılıq qədim tarixə malikdir.



X-XII əsrlərdə burada arıçılıq daha da inkişaf etmişdir. Hətta Azərbaycandan xarici ölkələrə arıçılıq məhsulları (bal, mum) ixrac edilmişdir.

Qədim zamanlarda arılar ağac oyuqlarında, kötük teknələrdə, səbətlərdə saxlanılırdı. Belə bir vəziyyətdə arılara qulluq etmək və onları artırmaq çətinlik törədirdi. Tədricən dünyada olduğu kimi, ölkəmizdə də arıçılığın inkişafında mütərəqqi üsullardan istifadə edildi. Arıçılıqla məşğul olduqca bu sahədə zəngin bilik və təcrübə qazanıldı. Beləliklə, balın kəmiyyət və keyfiyyəti də getdikcə artdı. Bu əvəzsiz nemətdən məişətimizdə daha çox istifadə olunmağa başlandı.

Azərbaycanda arıçılığın inkişafına sovetlər dönəmində diqqət daha da artırıldı. Bu məqsədlə həmin dövrdə mövcud xırda dağınıq arıçılıq təsərrüfatları kolxoz və sovxozlarda, sonralar isə ixtisaslaşdırılmış iri arıçılıq təsərrüfatlarında birləşdirildi. Hazırda belə təsərrüfatlarda arı ailələri müasir çoxgövdəli və yatıq pətəklərdə saxlanılır. Bu sahə Astara, Şamaxı, Quba, Qusar, Şəki, Zaqatala, Daşkəsən, Lerik, Lənkəran, Kəlbəcər, Laçın rayonlarında və Qarabağ bölgəsində daha geniş yayılmışdır.

*Ardı 6-cı səh.*

## ATƏT-dən Paşinyana sərt ittiham

### Qurumun Parlament Assambleyasının sədri Ermənistanın baş nazirinin danışıqlar prosesinə zərbə vurduğunu bəyan etdi

**Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ziddiyyətli açıqlamalar verməkdə davam edir. Bütün bu açıqlamalarla erməni baş nazir ilk növbədə ölkəsinin işğalçılıq niyyətini açıq etiraf etmiş olur. Məsələn, Paşinyanın avqustun əvvəllərində Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistana aid etməsi, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırışı bu ölkənin əsl məqsədinin işğalçılıq olduğunun növbəti açıq ifşasıdır.**

Paşinyanın reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir. Bununla yanaşı, onun bu cür davranışı danışıqlar prosesinə böyük zərbə vurur. Digər tərəfdən Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına çağırmaq beynəlxalq ictimaiyyətə, xüsusilə münaqişənin danışıqlar yolu ilə həllinə məsul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə hörmətsizlikdən və məsuliyyətsizlikdən başqa bir şey deyil. Ermənistan baş nazir səviyyəsində beynəlxalq hüququn norma və prinsiplərini, BMT Nizamnaməsini, Helsinki Yekun Aktını ayaq altına atır, təhqir edir və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçilik etdiyi danışıqlar prosesini məhv edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, bu açıqlama ilə Ermənistanın baş naziri həmçinin özü-özünü inkar edir və bir müddət əvvəl Dağlıq Qarabağ adından guya danışa bilməməsi haqqında bəyanatının cəfəngiyyat və yalandan başqa bir şey olmadığını etiraf edir. Bununla Ermənistan rəhbərliyi açıq-aşkar sübut edir ki, onların danışıqlar prosesində iştirakı riyakarlıq və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmamışdır.

*Ardı 4-cü səh.*

## Ağcabədi kəndlisi uğurlara imza atır

**Prezident İlham Əliyevin qeyri-neft sektorunun, xüsusilə kənd təsərrüfatında ənənəvi sahələrin inkişaf etdirilməsi barədə verdiyi tapşırıq və tövsiyələr ölkənin hər yerində olduğu kimi, Ağcabədi rayonunda da yüksək məsuliyyət hissi ilə, eyni zamanda müvəffəqiyyətlə həyata keçirilir.**

Ağcabədi respublikanın böyük potensiala malik rayonlarındandır. Rayonun torpağı münbit, suyu bol, insanları isə işgüzar, bacarıqlı və qədirbiləndir. Son illər uğurla reallaşdırılan kompleks təşkilat-təsərrüfat tədbirləri sayəsində rayonun iqtisadiyyatı müqayisəedilməz dərəcədə yüksəlmiş, sosial-iqtisadi inkişaf dönməz xarakter almışdır. Çox qürurvericidir ki, ölkənin aqrar sektorunda Ağcabədi bir qabaqcıllıq nümunəsi yaratmışdır. Mütərəqqi texnologiyalardan, innovativ üsullardan bacarıqla, yerli xüsusiyyətlərə uyğun yaradıcılıqla istifadə olunması aqrar sektorun dinamik inkişafında əsas şərtdir desək, səhv olmaz. Pambıqçılıqda, taxılçılıqda, baramaçılıqda, eləcə də təsərrüfatın digər sahələrində son illərin məhsul artımı indi faizlərlə deyil, dəfələrlə hesablanır.



*Ardı 6-cı səh.*

# Azərbaycan AŞ PA ilə əməkdaşlığın inkişafına böyük önəm verir

## Oqtay ƏSƏDOV: "Təəssüf ki, bəzən ölkəmizə qarşı ikili standartlarla yanaşmanın şahidi oluruq"

**"Azərbaycan Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük önəm verir. Ölkəmiz 2001-ci ilin yanvarından Avropa Şurasının tamhüquqlu üzvü seçilib.**



Bu, müstəqilliyimizin bərpasından sonra əldə etdiyimiz mühüm nailiyyətlərdən biridir. Ancaq, təəssüflər olsun ki, bəzən müəyyən anlaşılmazlıq və ermənilərin məqsədlərinə xidmət edən lobbiçilik fəaliyyəti göstərən bir sıra deputatların hərəkətləri ucbatından qurumda Azərbaycana qarşı qərəzli mövqenin və bir sıra məsələlərə ikili standartlarla yanaşmanın şahidi oluruq. Buna baxmayaraq inanırıq ki, gələcəkdə belə xoşagəlməz hallar aradan qalxacaq, müzakirə doğura biləcək məsələlər ətrafında fikir mübadiləsi aparmaq üçün normal şərait yaranacaq".

Bu fikirləri dünən Milli Məclisin Sədri Oqtay Əsədov Avropa Şurası Parlament Assambleyasının prezidenti xanım Lilian Mori Paskie ilə görüşdə səsləndirdi. Ötən müddət ərzində Azərbaycanın hüquqi, demokratik dövlət quruculuğu prosesində Avropa Şurasının və onun qurumlarının dəstəyini hiss etdiyini vurğulayan Oqtay Əsədov dedi ki, qarşılıqlı əməkdaşlıq istiqamətində ötən dövr ərzində xeyli işlər görülüb: "Azərbaycanda hüquq sisteminin təməl prinsiplərini özündə əks etdirən qanunvericilik bazası formalaşdırılıb. İmzalanmış 70-ə yaxın əfv sərəncamına və 11 amnistiya aktına uyğun olaraq 40 min nəfər məhkum azadlığa buraxılıb. Azərbaycan Prezidentinin bu ilin mart ayında imzaladığı əfv fərmanına uyğun olaraq 431 nəfər azadlığa çıxıb".

Oqtay Əsədov onu da diqqətə çatdırıb ki, Azərbaycan əsrlər boyu tolerant məkan kimi tanınıb. Hazırda da ölkəmizdə etnik və dini tolerantlıq hökm sürməkdədir. Məscidlərin, kilsələrin, sinaqoqların dinc şəraitdə fəaliyyət göstərməsi bir daha Azərbaycanın multikultural ölkə olduğunu təsdiqləyən faktdır.

Azərbaycanın gələcəkdə də AŞ PA, o cümlədən bütün beynəlxalq təşkilatlar ilə əməkdaşlığının genişləndirilməsində də maraqlı olduğunu deyən Milli Məclisin Sədri bildirdi ki, bu günlərdə qurumun Azərbaycan üzrə məruzəçisi ölkəmizə səfər edib və diplomat bu səfərlə bağlı yanvar ayında AŞ PA-ya hesabat təqdim edəcək.

AŞ PA prezidenti xanım Lilian Mori Paskie rəhbərlik etdiyi təşkilatla Azərbaycan arasında maraqlı, işgüzar əməkdaşlığın olduğunu bildirdi. O, qeyd etdi ki, təmsil etdiyi qurum Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır.

Xanım Lilian Mori Azərbaycanın qurumdakı nümayəndə heyətinin fəaliyyətini də yüksək dəyərləndirdi. Onun sözlərinə görə, deputatlarımız təşkilatın struktur qurumlarında və keçirilən tədbirlərdə daim fəal iştirak edir, müzakirə olunan məsələlərə öz münasibətlərini bildirir, maraq doğuran əhəmiyyətli təkliflərlə çıxış edirlər. Nümayəndə heyətinin üzvlərinin hazırladıqları hesabatlar, məruzələr böyük marağa səbəb olur.

İclasda tərəfləri maraqlandıran digər məsələlər ətrafında da müzakirələr aparıldı.

***R.BAXŞƏLİYEV,***
***F.BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası

Sentyabrın 11-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Ziyafət Əsgərov payız sessiyasının başlaması münasibətilə deputatları təbrik edib, onlara işlərində uğurlar diləyib.

Komitə sədri bildirib ki, iclasın gündəliyindəki "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunur.

Məlumat verilib ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun 2-ci maddəsinə edilən dəyişiklikdə təklif olunur ki, "Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrində" sözləri "hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda)" sözləri ilə əvəz edilsin. Eyni məzmunlu düzəlişlər bu qanunun 7-ci maddəsində və "Əmək pensiyaları haqqında" qanunun 21.2.3-cü maddəsində də nəzərdə tutulub. Həmçinin "hərbi qulluqçular" anlayışının məzmunu yenilənərək "Azərbaycan Respublikası Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət edən hərbi rütbəli şəxslər" kimi verilir.

Diqqətə çatdırılıb ki, layihə "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə 2018-ci il 12 oktyabr tarixli qanunun icrasını təmin etmək məqsədilə hazırlanıb. Həmin qanunda hərbi qulluqçuların yalnız Azərbaycan Respublikasının Silahlı Qüvvələrində deyil, habelə hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında da (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət keçməsi müəyyən olunub. Təklif edilən dəyişikliklər belə qurumların hərbi qulluqçularının dövlət icbari şəxsi sığortası və pensiya təminatının əvvəlki qaydada saxlanılmasına xidmət edir.

Sonra Ziyafət Əsgərov bildirib ki, cari ilin yaz və növbədənkənar sessiyalarında komitənin 10 iclası keçirilib, 17 qanun layihəsi plenar iclasa tövsiyə olunub və qəbul edilib. Payız sessiyasında "Daxili qoşunlar haqqında", "Hərbi qulluqçuların statusu haqqında" və digər qanun layihələrinə baxılması nəzərdə tutulub.

İclasda çıxış edən komitə üzvləri Elman Məmmədov, Aqil Abbas, Hikmət Məmmədov, Fərəc Quliyev qanunlara edilən dəyişiklikləri məqbul hesab ediblər. Deputatlar dövlət tərəfindən hərbi sahəyə, hərbi qulluqçulara göstərilən diqqət və qayğını təqdir ediblər. Ordumuzun döyüş ruhunun yüksək olduğunu söyləyiblər.

Müzakirələrdən sonra "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Avropa Şurasının yaranmasının 70 illiyi ilə əlaqədar Bakıda tədbir keçirilib

Sentyabrın 11-də Azərbaycan-Fransız Universitetində AŞ PA-nın prezidenti Lilian Mori Paskienin iştirakı ilə Avropa Şurasının yaranmasının 70 illik yubileyinə həsr olunan "dəyirmi masa" keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Lilian Mori Paskie çıxış edərək əsas prinsipləri insan hüquqlarının qorunması, qanunun aliliyinin təmin edilməsi olan bu təşkilata Azərbaycan Respublikasının 2001-ci ildən tamhüquqlu üzv qəbul edildiyini xatırladıb. O deyib ki, Azərbaycanın və digər ölkələrin Avropa Şurası Parlament Assambleyasına qoşulması Avropada geniş vəhdətə nail olunmasında mühüm rol oynayıb. Ona görə də AŞ PA-nın 70 illiyi ilə bağlı tədbir Azərbaycanda keçirilir. Qurumun rəhbəri yaradılan bu imkana görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib. AŞ PA prezidenti təşkilata üzv ölkələrin siyasi əməkdaşlığı və dialoqu inkişaf etdirməsinin vacib olduğunu deyib. İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Elmira Süleymanova Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməsindən bəhs edib. O bildirib ki, Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv olduqdan sonra məhkəmə-hüquq sistemində, insan hüquqlarının qorunması sahəsində mühüm işlər görüb. Bundan başqa, mətbuat və söz azadlığının qorunması sahəsində, korrupsiyaya qarşı mübarizədə islahatlar aparılıb. Ölkəmiz onlarla beynəlxalq sənədə qoşulub.

Qeyd edək ki, tədbirdə Avropa Şurası Katibliyinin Hüquqi məsələlər və qanunun aliliyi üzrə baş direktoru Kristos Giakoumopoulos, Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov, Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev, Avropa Şurası Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) prezidenti Ramin Qurbanov, Avropa Şurası Bakı ofisinin rəhbəri Zoltan Hernyes və digər şəxslər iştirak ediblər.

"Dəyirmi masa" müzakirələrlə davam edib.

# Mariya ZAXAROVA: "Azərbaycanda insanları dil üstünlüyü zəminində qarşı-qarşıya gətirmək cəhdləri yoxdur"

Azərbaycanın rus dilinin qorunmasına verdiyi töhfəni Rusiyada çox yüksək qiymətləndirirlər.

AZƏRTAC xəbər verir ki, bu fikri "Moskva-Bakı" portalına Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib.

M.Zaxarova deyib: "Biz Azərbaycan Respublikasının dostu olan ölkənin, xalqın dili kimi rus dilinə Azərbaycanda həm maraq, həm də həqiqi sevgi olduğunu görürük. Mənə elə gəlir ki, bu, həm də özünün bir ilham mənbəyinə olan münasibətdir. Bu cür münasibət bizim mədəniyyətlərin xüsusi vəhdəti ilə bağlıdır, o səviyyədə ki, onları ayırmaq nəinki lazım deyil, həm də zərərlidir. Dili, öz cəmiyyətini və mədəniyyətini kütləvi informasiya vasitələri ilə qarşılıqlı olaraq zənginləşdirmək isə (zənnimcə, bu, əlverişli və düzgündür) həm doğru, həm də olduqca vacibdir".

Rusiya XİN-in xüsusi nümayəndəsi Azərbaycan KİV-ində rusdilli seqmentin bir neçə istiqamətini vurğulayıb: "Bu, rus dilində milli, habelə həmvətənlərin və bilavasitə Rusiyada qeydiyyata alınmış və Azərbaycanda müvafiq olaraq rus dilində fəaliyyət göstərən KİV-dən ibarətdir. Qeyd etmək istərdim ki, onlar Azərbaycan auditoriyasında böyük populyarlıq qazanıblar. Rus dilində milli kütləvi informasiya vasitələrindən və həmvətənlərimizin KİV-indən danışdıqda təxminən 20 nəşri və 15 informasiya agentliyini fərqləndirmək olar. Bu, yaxşı rəqəmdir və göstərilən məhsula olan tələbatın göstəricisidir".

M.Zaxarovanın fikrincə, dildən söhbət getdikdə, təəssüf ki, hər bir ölkədə həm də siyasi məqam ortaya çıxır. Çünki milli siyasət və milli mədəniyyət məsələləri də müşahidə olunur. Rusiya XİN-in sözçüsü vurğulayıb: "Müdriklik ondadır ki, siyasi aspekt də daxil olmaqla cəmiyyətdə olan bu tendensiyalar qarşı-qarşıya gətirilməsin, əksinə, onların yaxınlaşması, xarakterik əlamətlərinin vəhdəti ilə məşğul olmaq mümkün olsun. Cəmiyyət, milli mədəniyyət həmişə bu xarakterik cəhətlər üzərində qurulur, yaxud onlara söykənir. Mənə elə gəlir ki, Azərbaycanda bu məsələ ilə bağlı hər şey harmonik şəkildə baş verir. Burada əks mövqe, insanların dil üstünlüyü zəminində qarşı-qarşıya qoyulması, yaxud KİV-in seçimində dil amilinə üstünlük verilməsi halları yoxdur. Əksinə, bir ahəng var. Zənnimcə bu, müdrikliyin əlamətidir, belə ki, öz informasiya, mədəniyyət məkanını zənginləşdirmək ciddi problemlərin profilaktikası, gələcəkdə onlara yol verilməməsi imkanı deməkdir. Biz Azərbaycanın rus dilinin qorunmasına verdiyi töhfəni Rusiyada yüksək qiymətləndiririk".

# "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda "dəyirmi masa"



Sentyabrın 11-də Bakıda Ana Vətən Partiyasının təşəbbüsü ilə "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda "dəyirmi masa" keçirilib.

AZƏRTAC xəbər verir ki, "dəyirmi masa"da Azərbaycanda fəaliyyət göstərən bir sıra siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının rəhbərləri, media təmsilçiləri və siyasi ekspertlər iştirak ediblər.

Tədbiri açan Ana Vətən Partiyasının sədri, Milli Məclisin deputatı Fəzail Ağamalı deyib ki, müəyyən səbəb və vasitələrlə Azərbaycandan xaricə gedən, anarxist mövqe nümayiş etdirən, özlərini "mühacir müxalifət" adlandıran səbatsız, zəif iradəli insanlar dövlətimizə qarşı çıxmaqla insanlarda ümidsizlik mühiti yaratmağa çalışırlar. Onlar əslində Ermənistanın dövlət maraqlarına xidmət edirlər. Biz öz iradəmizi ortalığa qoymalı, Azərbaycan dövlətçiliyinin yanında olmalıyıq.

Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi, Baş Nazirin müavini Əli Əhmədov çıxışında bildirib ki, təcrübədə ayrı-ayrı ölkələrin daxili işlərinə qarışmaq halları olub. Bu hallara müəyyən siyasi proseslər və seçkilər zamanı daha çox rast gəlinir. Hər hansı ölkədə cərəyan edən siyasi proseslər ancaq həmin ölkənin vətəndaşlarının iradəsi ilə reallaşdırıla bilər. Bütün ölkələrdə bu normalar mövcuddur.

Əli Əhmədov vurğulayıb ki, istənilən siyasi partiya ölkənin maraqlarını üstün tutmalıdır. Xaricdə mühacir statusu alan bəzi şəxslər Azərbaycanda siyasi proseslərdə yaxından iştirak etməyə cəhd göstərirlər. Həmin şəxslər asanlıqla xarici xüsusi xidmət orqanları tərəfindən ələ alına bilər. Ona görə də onların siyasi proseslərə müdaxiləsi təhlükəlidir. Onların əsas işi Azərbaycan dövlətini, Prezidentini nüfuzdan salmaqdır. Çünki Azərbaycan güclənib, qüdrətlənib.

YAP sədrinin müavini-icra katibi deyib ki, sağlam düşüncəli qüvvələrin milli maraqlar naminə birləşməsi çox önəmlidir. Hakimiyyət iddiasında olan partiyalar xalqın marağından çıxış etməlidir, hansısa xarici qüvvənin yox.

Sonra Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev, Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa, Vəhdət Partiyasının sədri, deputat Tahir Kərimli, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, "Azəri Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı, Aydınlar Partiyasının sədri Qulamhüseyn Əlibəyli, hüquq müdafiəçisi Novella Cəfəroğlu, "Real" televiziyasının rəhbəri Mirşahin Ağayev, "Teleqraf holdinq"in rəhbəri Aynur Camalqızı və digər siyasi partiyaların, QHT-lərin rəhbərləri, ekspertlər, media təmsilçiləri mövzu ilə bağlı fikirlərini bildiriblər.

Diskusiya şəraitində keçən müzakirələrdən sonra birgə bəyanat qəbul edilib.

Bəyanatda deyilir: "Biz, "Azərbaycandakı siyasi proseslərə xarici müdaxilələrin yolverilməzliyi" mövzusunda təşkil edilmiş "dəyirmi masa"nın iştirakçıları olan siyasi partiyaların, vətəndaş cəmiyyətinin təmsilçiləri, media rəhbərləri və müstəqil siyasi ekspertlər bu gün beynəlxalq aləmdə, o cümlədən regionda baş verən mürəkkəb və həssas prosesləri, real imkan və perspektivləri hərtərəfli müzakirə edərək, Azərbaycanın müstəqilliyinin, eləcə də dövlətçilik prinsiplərinin daha da möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, taleyüklü məsələlərdə milli həmrəyliyimizin tam şəkildə bərqərar edilməsi, xalqımızın həyat səviyyəsinin, dövlətimizin iqtisadi və hərbi potensialının, beynəlxalq aləmdə nüfuzunun və təsir imkanlarının daha da gücləndirilməsi məqsədilə aşağıdakıları bəyan edirik:

- Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş torpaqlarının qısa müddətdə işğaldan azad edilməsi istiqamətində hərb yolu da daxili olmaqla atılacaq addımları birmənalı şəkildə müdafiə edəcəyimizi bəyan edir;
- siyasi mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın ordu quruculuğuna və silahlı qüvvələrimizə hərtərəfli və birmənalı dəstəyinin zəruriliyini ifadə edir;
- ölkədə həyata keçiriləcək islahatları dəstəkləyir, ardıcıl və davamlı olmasını vacib sayır;
- vətəndaş sülhü və milli həmrəylik istiqamətində birgə fəaliyyətin göstərilməsinin zəruriliyini nəzərə alaraq, siyasi mübarizədə etik normaları gözləməyə, milli-mənəvi və əxlaqi dəyərlərimizə zidd əməllərə yol verməməyə, eyni zamanda, davamlı dialoq mühitinin yaradılmasına, sosial şəbəkələrdə, o cümlədən kütləvi informasiya vasitələrində təhqir, böhtan və şayiə xarakterli məlumatlar yaymamağa çağırır;
- respublikamızda siyasi proseslərə, beynəlxalq hüquqazidd hər hansı xarici müdaxilənin yolverilməz olduğunu xüsusi vurğulayır və belə müdaxilə cəhdlərinə qarşı birgə fəaliyyəti zəruri saydığımızı bildiririk".

# Azərbaycanda məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar Avropa Şurası tərəfindən təqdir edilir

Sentyabrın 11-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri Xristos Cakumopulosun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Zakir Qaralov Azərbaycanda Avropa Şurası ilə əməkdaşlığa böyük önəm verildiyini xüsusi vurğulayaraq müstəqilliyin bərpasından sonra xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində görülmüş məqsədyönlü işlərdən danışıb, Avropa Şurası ilə münasibətlərin tarixinə nəzər salıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə-hüquq islahatlarının uğurla davam etdirildiyini bildirən Baş prokuror müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsi sisteminin formalaşdırılması ilə əlaqədar dövlət başçısının "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli sərəncamının icrası ilə bağlı Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişikliyin edildiyini, məcəllədə indiyədək nəzərdə tutulmuş 18 növ cinayət əməlinin dekriminallaşdırılması, cinayət məsuliyyətinə alternativ olan tədbirlərin tətbiqi əsaslarının xeyli dərəcədə genişləndirilərək 152 növ cinayətin sanksiyasına azadlıqdan məhrumetməyə alternativ cəzaların əlavə olunması barədə məlumat verib, bu humanistləşdirmə tədbirlərinin bugünədək 10 minə yaxın şəxsə şamil olunduğunu bildirib.

Həmin tədbirlərin davamı olaraq azadlıqdan məhrumetməyə alternativ cəzaların icrasının səmərəliliyinin artırılması üzrə ardıcıl tədbirlərin görülməsi, cəzaların icrasında müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə olunmaqla elektron nəzarət vasitələrinin tətbiqi məqsədilə Ədliyyə Nazirliyində Probasiya Xidmətinin yaradıldığı qeyd olunub.

Bundan başqa, məhkəmə-hüquq sistemində həyata keçirilən islahatların davamı olan Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanı barədə məlumat verən Baş prokuror ölkə məhkəmələrinin fəaliyyətinin müasir tələblərə uyğun qurulması, onların fəaliyyətində şəffaflıq və açıqlıq prinsiplərinin rəhbər tutulması, elektron xidmətlərin göstərilməsi, hakimlərin sayının artırılması və sosial müdafiəsinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyəti subyektlərinin məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, eləcə də cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirlərin davam etdirilməsi istiqamətində həmin fərmanla verilmiş tövsiyə və tapşırıqlar barədə danışıb.

Baş prokuror qeyd edib ki, həmin tövsiyə və tapşırıqların icrası ilə əlaqədar Ədliyyə Nazirliyi, Ali Məhkəmə və Baş Prokurorluq tərəfindən Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar məcəllələrinə 400-ə yaxın dəyişikliyin edilməsi haqqında qanun layihələri hazırlanıb.

Görüşdə xalqımızın ağrılı yeri olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində ölkəmizin ərazisinin 20 faizinin Ermənistanın işğalı altında olması, bir milyondan artıq qaçqın və məcburi köçkünün doğma yurdlarından didərgin düşdüyünü qeyd edən Baş prokuror işğala məruz qalmış ərazilərimizdə yaradılmış qondarma "məhkəmələr" tərəfindən Dilqəm Əsgərovun və Şahbaz Quliyevin doğma torpağında casus adı ilə həbs edilərək əsirlikdə saxlanılmasının insan hüquqlarının pozuntusunun bariz nümunəsi olduğunu qonağın diqqətinə çatdırıb.

Baş Prokurorluğun insan hüquqları və qanunun aliliyi sahəsində Avropa Şurası ilə əməkdaşlığa hər zaman hazır olduğunu bildirən Zakir Qaralov cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən korrupsiyaya qarşı mübarizə istiqamətində atılan addımlar barədə məlumat verib, bu işdə həm əhali, həm beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilən və dünyada artıq Azərbaycan brendi kimi tanınan "ASAN xidmət" mərkəzlərinin fəaliyyətini xüsusi qeyd edib.

Ölkəmizlə bağlı xoş təəssüratlarından danışan Xristos Cakumopolos, Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi üzrə Baş Direktorluğunun rəhbəri qismində Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatların Avropa Şurası tərəfindən təqdir olunduğunu və dəstəkləndiyini diqqətə çatdırıb. O, Avropa Şurası ekspertlərinin azərbaycanlı həmkarları ilə bundan sonra da sıx və əlaqəli şəkildə işləmək niyyətini ifadə edərək korrupsiyanın aradan qaldırılması ilə bağlı görülən işləri yüksək qiymətləndirib.

Görüşdə qarşılıqlı maraq kəsb edən bir sıra məsələlər müzakirə edilib.

# Təhsil işçilərinin ənənəvi respublika konfransı keçirilib






Sentyabrın 11-də təhsil işçilərinin ənənəvi respublika konfransı keçirilib. Konfransda ötən tədris ilinin yekunları müzakirə edilib, 2019-2020-ci dərs ilinin prioritet istiqamətləri, qarşıda duran hədəflər yerli təhsili idarəetmə orqanlarının, ümumtəhsil məktəblərinin pedaqoji kollektivlərinin və təhsil ictimaiyyətinin diqqətinə çatdırılıb.

AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Tədbirdə "Təhsil" televiziyasının 2018-2019-cu tədris ili ilə bağlı hazırladığı videoçarx nümayiş olunub.

Konfransda hesabat məruzəsi ilə çıxış edən Təhsil naziri Ceyhun Bayramov diqqətə çatdırıb ki, dövlət siyasətində təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsinə və yeni şəraitin yaradılmasına xüsusi diqqət yetirilir. Bu məqsədlə Prezident İlham Əliyev tərəfindən çoxsaylı proqramlar, sərəncamlar imzalanıb. 2019-cu ildə 50-si modul tipli olmaqla 84 yeni təhsil müəssisəsinin tikintisi və əsaslı təmiri həyata keçirilir. Bu təhsil müəssisələrindən 43-ü sentyabr ayının 15-nə qədər təhvil veriləcək. Digər 41 məktəbdə işlər ilin sonuna qədər yekunlaşacaq. Təhsil sisteminin maddi-texniki bazasının müasirləşdirilməsi və yenilənməsi sahəsində görülən işlərdən danışarkən mütləq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xüsusi xidmətlərini də qeyd etməliyik. Heydər Əliyev Fondunun xətti ilə 14 yeni məktəb binasının tikintisi, 8 məktəbin əsaslı təmiri həyata keçirilir. Eyni zamanda, dövlət proqramına uyğun olaraq bu il ərzində 257 məktəbdə təmir işləri görülüb. Ümumilikdə götürdükdə 2003-2018-ci illər ərzində ölkədə 3200-dən artıq yeni məktəb binası tikilib və ya əsaslı təmir olunub. Nəticədə bir milyondan çox Azərbaycan şagirdinin təlim-təhsil şəraiti əhəmiyyətli şəkildə yaxşılaşıb.

Nazir qeyd edib ki, təhsil sahəsində aparılan əməkhaqqı islahatlarını da diqqətdən kənarda qoymamalıyıq. Müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılıb. Nəticədə 150 mindən artıq müəllimin dərs yükü 1,5 dəfə, əməkhaqqı isə orta hesabla 2 dəfə artıb. Təhsil sahəsində əməkhaqlarının artırılması sistemli və davamlı xarakter daşıyır. Sentyabrın 1-də qüvvəyə minən sərəncam nəticəsində müəllimlərin orta aylıq əməkhaqqı təxminən 600 manatı keçib. Bu artımdan sonra ümumtəhsil sistemində çalışan 5 mindən çox müəllimin əməkhaqqı 1000 manatı keçib.

Ceyhun Bayramov son illərdə ölkəmizdə təhsil sahəsində müsbət dinamika müşahidə olunduğunu və bir sıra əsaslı nailiyyətlər əldə edildiyini diqqətə çatdırıb. Məktəbəqədər təhsilin əhəmiyyətindən danışan nazir UNİSEF və Avropa İttifaqının maliyyə dəstəyi ilə həyata keçirilən 3-5 yaşlı uşaqların icma əsaslı məktəbəqədər təhsilə cəlb olunması layihəsinə də toxunub. Qeyd edib ki, növbəti tədris ilində icma əsaslı məktəbəqədər qrupların sayının artırılaraq 300-ə, uşaqların isə 6000 nəfərə çatdırılması nəzərdə tutulur.

Təhsil naziri müəllim nüfuzunun, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, istedadlı insanların müəllim peşəsinə cəlb edilməsi istiqamətində görülən işlərdən də söz açıb. Vurğulayıb ki, həyata keçirilən bütün tədbirlər cəmiyyətdə işə qəbulun obyektivliyinə inam formalaşdırıb və 2019-cu ildə müsabiqədə iştirak edənlərin sayı əvvəlki illərə nisbətən xeyli artıb, müraciət edənlərin sayı 55 mini ötüb. Ümumilikdə son 5 ildə məktəblərin müəllim tərkibi keyfiyyət baxımından yaxşılaşıb, 20 mindən çox gənc müəllim işə qəbul olunub.

Nazir bildirib ki, bu il 500-dən çox bal toplayan abituriyentlərin 25 faizi müəllimlik ixtisasını seçib. Bu isə müəllim peşəsinin rəqabətliliyi, təhsilin keyfiyyəti haqqında müsbət proqnozlar söyləməyə imkan verir.

İstedadlı uşaqlarla iş sahəsində görülən tədbirləri vurğulayan Ceyhun Bayramov deyib ki, beynəlxalq olimpiada və bilik yarışlarında Azərbaycan məktəbliləri son beş ildə 4-ü qızıl, 34-ü gümüş və 108-i bürünc olmaqla ümumilikdə 146 medal qazanıblar. Tam orta təhsil səviyyəsində təmayülləşmənin əhatə dairəsi cari tədris ilində genişləndirilib və 2 min 140 sinifdə 47 min 930 şagird təmayüllər üzrə təhsilə cəlb edilib. Ötən il ölkəmizin bir sıra şəhər və rayonlarında 60 lisey sinif yaradılıb. Cari tədris ilində də bu istiqamətdə işlər davam etdiriləcək, siniflərin sayı artırılacaq. Gəncə şəhərində və Quba rayonunda Təhsil Nazirliyinin tabeliyindəki Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin, Şirvan və Şəki şəhərlərində isə nazirliyin tabeliyindəki Kimya-biologiya təmayüllü Respublika liseyinin sinifləri yaradılacaq. Siniflərin yaradılmasında əsas məqsəd bölgələrdə istedadlı uşaq və gənclərin potensial imkanlarının aşkarlanması, inkişaf etdirilməsi və onların səmərəli təhsil almaları üçün lazımi şəraitin yaradılmasıdır. Bu siniflərin beynəlxalq olimpiadalara hazırlıq mərkəzi funksiyasını daşıması da nəzərdə tutulur.

Tədrisdə İKT-dən istifadə imkanlarının genişləndirilməsi, "Rəqəmsal bacarıqlar" layihələri barədə məlumatları diqqətə çatdıran Ceyhun Bayramov qeyd edib ki, layihə növbəti tədris ilində 100-dən çox məktəbi və 90 mindən artıq şagirdi əhatə edəcək. Növbəti tədris ilində ilk dəfə olaraq 6000-dən çox şagird əhatə edilməklə məktəblərdə STEAM-in (təbiət elmləri, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatın inteqrativ öyrədilməsi) tədrisinə start veriləcək.

Məktəb məzunlarının əmək bazarına daha asanlıqla inteqrasiyasını təmin etmək məqsədilə növbəti tədris ilindən ümumi təhsil müəssisələrinin X-XI siniflərində peşə təmayül siniflərinin fəaliyyətə başlaması planlaşdırılır. İlkin olaraq müxtəlif bölgələr əhatə edilməklə 20 ümumi təhsil müəssisəsində iaşə xidməti, kənd təsərrüfatı, inşaat və məişət texnikası üzrə bacarıqların tədrisi üçün zəruri olan emalatxana və təcrübə sahələri yaradılacaq.

Təhsil sisteminin qarşısında duran ən böyük vəzifələrdən biri də təhsilin bütün vətəndaşlar üçün əlçatan, keyfiyyətli, rəqabətədavamlı olması, eyni zamanda, gənclərimizdə düzgün dəyərlərin formalaşdırılmasıdır. Nazir təhsil işçilərini bu istiqamətdə səylərini artırmağa çağırıb.

Çıxışının sonunda nazir Ceyhun Bayramov yeni tədris ilinin başlaması münasibətilə təhsil işçilərini təbrik edərək onlara uğurlar arzulayıb.

Konfransda çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev, Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, təhsil eksperti Şahlar Əsgərov, Təhsil Nazirliyinin tabeliyindəki akademik Zərifə Əliyeva adına liseyin direktoru Mehriban Vəliyeva ölkəmizdə uğurla həyata keçirilən təhsil siyasətindən, əldə edilən nailiyyətlərdən və yeni tədris ili üçün nəzərdə tutulan prioritetlərdən danışıblar.

Daha sonra Laçın rayonu Taxtakörpü qəsəbə tam orta məktəbinin gənc müəllimi Şəbnəm Uğurlu, bu il ali təhsil müəssisələrinə qəbul zamanı yüksək balla pedaqoji ixtisası seçən tələbə Fidan Əhmədova çıxış ediblər.

Konfrans işini panel sessiyalarla davam etdirib. Sessiyalarda "Təhsilin məzmunu, milli və beynəlxalq qiymətləndirmə tədqiqatları", "Qiymətləndirmədə buraxılış imtahanlarının yeni modeli: ilkin nəticələrin təhlili", "Rəqəmsal sistemlər və səmərəli idarəetmə", "İstedadlı uşaqlarla işin təşkili", "STEAM milli kurikulumun tərkib hissəsi kimi", "Ümumi təhsil məktəblərində peşəyönümlü təmayüllərin tətbiqi" mövzularında müzakirələr aparılıb.

Xatırladaq ki, sentyabrın 2-dən 6-dək respublikanın müxtəlif rayon və şəhərlərində təhsil işçilərinin konfransları keçirilib. Konfranslarda ötən tədris ilinin yekunları və yeni tədris ilinin prioritet istiqamətləri təhsil işçiləri ilə geniş müzakirə edilib, qarşıda duran vəzifələrlə bağlı tövsiyə və tapşırıqlar verilib.

# Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə birinci yerdədir

"Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarındandır və iki ölkə arasında ticarət dövriyyəsinin həcmində davamlı artım müşahidə edilir. Rusiyanın Cənubi Qafqaz ölkələri ilə ticarətinin 50 faizə yaxın hissəsi Azərbaycanın payına düşür. Ötən il Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsi 19 faiz, bu ilin yanvar-iyul ayları ərzində isə 23 faiz artıb. Rusiya qeyri-neft məhsullarımızın ixracı üzrə birinci yerdədir. Təkcə ötən il Azərbaycandan Rusiyaya ixrac edilən meyvə-tərəvəzin həcmi 550 min tondan çox olub və ixrac həcminin bir milyon tona çatdırılması imkanları mövcuddur".



Bu fikirləri İqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə səfərdə olan Rusiya Federasiyasının Sverdlovsk vilayətinin qubernatoru Yevgeniy Kuyvaşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə dünən keçirilən görüşdə səsləndirib.

Nazir vurğulayıb ki, Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində iki ölkə arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və ölkə liderlərinin qarşılıqlı səfərləri, müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirir.

Nazir qeyd edib ki, Azərbaycan Rusiyanın federal subyektləri ilə sıx əməkdaşlıq edir və Sverdlovsk vilayəti Azərbaycan üçün vacib tərəfdaşdır. 2018-ci ildə Azərbaycanın Rusiya Federasiyasının Sverdlovsk vilayəti ilə ticarət dövriyyəsi 83 faiz artaraq 95 milyon dollara çatıb. 2019-cu ildə bu göstəricinin 100 milyon dollardan çox olması hədəflənir. Bu ilin iyul ayında Yekaterinburq şəhərində Azərbaycan Şərab Evinin açılması isə qarşılıqlı əməkdaşlığın real nəticəsidir.

Görüşdə o da vurğulanıb ki, bu gün keçiriləcək Azərbaycan-Rusiya biznes forumunda Sverdlovsk vilayətindən rəsmi şəxslərlə yanaşı, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən şirkətlərin nümayəndələri də iştirak edəcək. Biznes forum çərçivəsində Azərbaycan və Rusiya şirkətləri arasında Kənd təsərrüfatı məhsullarının ixracının təşviqi, şərab ixracının dəstəklənməsi və s. barədə sənədlərin imzalanması nəzərdə tutulur.

İqtisadiyyat naziri ölkəmizdə istehsal edilən kənd təsərrüfatı məhsullarının Rusiyaya, o cümlədən Sverdlovsk vilayətinə ixracı, maşınqayırma, metallurgiya, kimya, yüngül sənaye, İKT və s. sahələrdə fəaliyyət göstərən şirkətlərin Azərbaycanın sənaye parklarında iştirakı, kiçik və orta sahibkarlıq, nəqliyyat-logistika, səhiyyə, turizm, humanitar və digər istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi potensialını diqqətə çatdırıb. Nazir həmçinin maşınqayırma və elektrik avadanlıqlarının istehsalı sahəsində ixtisaslaşmış Rusiya şirkəti ilə Azərbaycanda qaldırıcı kran və avadanlıqların istehsalı sahəsində birgə müəssisənin yaradılmasını təklif edib.

Qubernator Yevgeniy Kuyvaşev isə Azərbaycanın Rusiya Federasiyası və onun federal subyektləri ilə əməkdaşlığının uğurla inkişaf etdiyini, bu sahədə işgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib. Yevgeniy Kuyvaşev iqtisadiyyatın bir sıra sahələrində əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması üçün potensialı diqqətə çatdırıb. Qubernator 23-dən çox ali təhsil müəssisəsinin yerləşdiyi Sverdlovsk vilayəti ilə Azərbaycan arasında elmi-texniki və humanitar sahədə əməkdaşlığın genişləndirilməsi imkanlarını vurğulayıb.

Sonra Azərbaycanın biznes mühiti və investisiya imkanları, sənaye parkları, Sverdlovsk vilayətinin sənaye potenisalı, görüşdə iştirak edən Azərbaycan və Rusiya şirkətləri arasında əlaqələrin inkişafı imkanları barədə məlumat verilib.

Görüşdə Azərbaycan və Rusiya Federasiyasının Sverdlovsk vilayəti arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətləri müzakirə olunub.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Hökuməti ilə Sverdlovsk vilayəti (Rusiya Federasiyası) Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və digər sahələrdə beynəlxalq və xarici iqtisadi əlaqələrin həyata keçirilməsi haqqında saziş imzalanıb. Sənədi İqtisadiyyat naziri Şahin Mustafayev və Rusiya Federasiyası Sverdlovsk vilayətinin qubernatoru Yevgeniy Kuyvaşev imzalayıblar.

Tədbirdə həmçinin, Bakı Dövlət Universiteti və Rusiyanın birinci Prezidenti B.N. Yeltsin adına Ural Federal Universiteti arasında əməkdaşlığa dair Memorandum, Azərbaycan Dillər Universiteti və Rusiyanın birinci Prezidenti B.N.Yeltsin adına Ural Federal Universiteti arasında əməkdaşlığa dair müqavilə imzalanıb.

Tədbir iş adamları arasında müzakirələrlə davam edib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub



Sentyabrın 9-da Dənizkənarı Milli Parkda "Nargis" komandasının "Make the Earth Smile" resaykling sərgisinin rəsmi açılışı olub. AZƏRTAC xəbər verir ki, "Nargis" Nəşriyyat Evi ətraf mühitin qorunması probleminə həsr edilmiş sərgi təşkil edib. Layihə çərçivəsində səkkiz heykəltəraş tərəfindən müxtəlif istehsalat tullantılarından qurulmuş 13 instalyasiya təqdim olunub.

















Sərgi "Nargis" jurnalının "Ekologiya" mövzusuna həsr olunmuş 63-cü nömrəsi ilə eyni vaxta təsadüf edib. Jurnal, üz qabığında - IDEA-nın təsisçisi Leyla Əliyevanın fotosu ilə nəşr edilib.

"Nargis" komandası - ətraf mühitə laqeyd olmayan insanlardır. "Nargis" ekoloji brendləri dəstəkləyir, təbii sərvətlərə qənaət edir, eyni zamanda, geniş oxucu kütləsi qazanmış bir nəşr olaraq, hər birimizin Ana-Yer kürəsinin qorunmasını təşviq və təbliğ etməkdə öz məsuliyyətini hiss edir.

"Make the Earth Smile" adlı ekoloji layihə - insanın həyat fəaliyyətinin 13 ən vacib, Yer kürəsinə xüsusilə zərər verən böhranlı sahəsini özündə əks etdirən 13 instalyasiyadan ibarətdir. Layihənin məqsədi - gənc nəsli müsbət nəticələrlə yekunlanan yeni həyat tərzinə alışdırmaqdır. Sərgidə ətraf mühitə kömək etmək üçün hər birimizə tövsiyə olunan 13 faydalı vərdiş təsvir edilmiş "Nargis" kitabçaları paylanıb. 13 rəqəmi təsadüfən seçilməyib - 13 dekabrda "Nargis" jurnalı öz ad gününü qeyd edir.

Rəşad Ələkbərov, Orxan Hüseynov, Kənan Əliyev, Sabit Zamanov, Teymur Qəribov, Fərid Rəsulov, Nurəli Şahbazov, Nazim Şükürov öz instalyasiyalarını onlara tərəfdaşlıq edən Aquavita, Ay Qonşu, "AzərEnerji", "Azersun", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Baku Steel Company", "Caspian Drilling Company Ltd", "Coca-Cola", Dr. Cahid Şahbazov, "Gilan Holding", "Nargis" Publishing House və "Veysəloğlu" Şirkətlər Qrupu ilə birgə yaradıblar.

Açılışa Leyla Əliyeva, "Nargis"in tərəfdaşları və dostları, xarici ölkələrin Azərbaycandakı səfirliklərindən nümayəndələr, nazirliklərdən nümayəndələr, sənətkarlar və qalereya sahibləri də daxil olmaqla 150-yə yaxın insan qatılıb. Sərgini ziyarət edən Təhsil naziri Ceyhun Bayramov təhsil sistemi çərçivəsində "Nargis" Nəşriyyat Evi ilə gələcək əməkdaşlıq üçün ekoloji layihə təklif edib. Daha sonra başda Ülviyyə Mahmudova olmaqla "Nargis" Nəşriyyat Evinin komandası bulvarda zeytun ağacı əkib.

Bu, "Nargis" komandasının təşkil etdiyi ilk sərgi deyil: bu ilin aprel ayında İstanbulda "Nargis" Nəşriyyat Evi jurnalın mövcud olduğu altı il ərzində çəkdiyi eksklüziv fotoşəkillərdən ibarət sərgi təqdim etmişdi, iyul ayında isə Bakıdakı Müasir İncəsənət Muzeyində "Women, Children and Well-Being" adlı xeyriyyə sərgisi keçirmiş və foto satışından əldə olunan pulun bir hissəsini "Nargis" xeyriyyə fonduna yönəltmişdir.

"Make the Earth Smile" sərgisi oktyabrın 5-dək davam edəcək. Giriş sərbəstdir.

# Gənclər və idman sahəsində münasibətlərin daha da inkişafı istiqamətində fikir mübadiləsi aparılıb

Sentyabrın 9-da Strasburqda işgüzar səfərdə olan Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov Avropa Şurasının mənzil-qərargahında təşkilatın Baş katibinin müavini xanım Qabriella Battaini-Draqoni ilə görüşüb.

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, görüşdə Azərbaycan və Avropa Şurası arasında gənclər və idman sahəsində formalaşmış geniş əməkdaşlıq münasibətlərinə nəzər salınıb və bu münasibətlərin daha da inkişafı istiqamətində gündəmdə dayanan müxtəlif mövzu və layihələr ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda, qarşıdakı dövrdə Avropa Şurası çərçivəsində Azərbaycanın gənclər və idman sahələri üzrə planlaşdırılan gələcək fəaliyyətinin yeni istiqamətləri də müzakirə edilib.

Bununla yanaşı, səfər çərçivəsində nazir Azad Rəhimov Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi Nümayəndəliyi tərəfindən təşkil edilən, Ümumdünya Antidopinq Agentliyinin İcraiyyə Komitəsinin Avropadan olan üzvü mövqeyinə Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) rəhbəri Şəfəq Hüseynlinin namizədliyinin təqdimatı mərasiminə də qatılıb.

Əsasən üzv dövlətlər üçün keçirilən bu tədbirdə daimi nümayəndə Fəxrəddin İsmayılovun çıxışından sonra nazir Azad Rəhimov ölkəmizdə idmanın inkişafı sahəsində işlər haqqında məlumat verib və əldə olunmuş nailiyyətləri iştirakçıların diqqətinə çatdırıb. Nazir respublikamızda antidopinq sahəsinə yetirilən diqqəti vurğulayıb, AMADA-nın dopinqlə mübarizə sahəsində qazandığı uğurlardan bəhs edib və üzv dövlətləri qarşıdan gələn günlərdə keçiriləcək seçkilərdə Azərbaycan namizədinə dəstək verməyə çağırıb.

AMADA-nın rəhbəri Şəfəq Hüseynli Ümumdünya Antidopinq Agentliyinin İcraçı Komitəsinə namizəd kimi irəli sürdüyü platforma barədə maraqlı təqdimatla çıxış edib və qlobal səviyyədə dopinq ilə effektiv mübarizə ilə bağlı düşüncələrini bölüşüb.

***"Azərbaycan"***

# Azərbaycanın Energetika naziri OPEC-in Baş katibi və rusiyalı həmkarı ilə neft bazarını müzakirə edib

Əbu-Dabidə səfərdə olan Energetika naziri Pərviz Şahbazov OPEC-in Baş katibi Məhəmməd Sanusi Barkindo və Rusiyanın Energetika naziri Aleksandr Novakla görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşlərdə dünya neft bazarının son vəziyyəti və inkişaf meylləri, neftin qiymətinə və neftə qlobal tələbatda artıma təsir edən amillər, "OPEC plus" ölkələri üzrə öhdəliklərin icra göstəriciləri və eləcə də bu format çərçivəsində Azərbaycanla əməkdaşlıq məsələləri müzakirə edilib. Neft bazarında sabitliyin qərarlaşdığı vurğulanaraq bu prosesdə "OPEC plus" iştirakçılarının rolu yüksək qiymətləndirilib. "OPEC plus" əməkdaşlığı qiymət sabitliyinin davamlığını təmin edə biləcək uğurlu və çevik tənzimləmə mexanizmi kimi qeyd olunub.

P.Şahbazov Səudiyyə Ərəbistanının "ACWA POWER" şirkətinin İdarə Heyətinin sədri Mohammad Abunayyan ilə də görüşüb. Görüşdə şirkətin külək enerji sahəsində əməkdaşlığa dair təklifləri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Şəhərtipli müasir Badamlı qəsəbəsi

## Badamlı qəsəbəsində avtomobil yolu və xidmət mərkəzi istifadəyə verilib



Sentyabrın 11-də Şahbuz rayonunun Badamlı qəsəbəsində avtomobil yolu və xidmət mərkəzi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib, avtomobil yolunda və xidmət mərkəzində yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, əsaslı şəkildə yenidən qurulan 5,3 kilometrlik Badamlı qəsəbə avtomobil yoluna yeni asfalt örtük salınıb, yolun kənarlarında 3090 metr məsafədə beton su kanalı çəkilib. Yol boyunca 53 su keçidi tikilib, 2 körpü əsaslı təmir olunub. Yolun tikintisi zamanı çay yatağında sahilbərkitmə işləri aparılıb, 2400 metrlik qəsəbədaxili yollara isə qum-çınqıl qatı verilib.

Xidmət mərkəzi ilə tanışlıq zamanı bildirilib ki, mərkəzdə bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları, eləcə də çörək sexi yerləşir. Ərzaq mağazasında ailə təsərrüfatlarında istehsal olunan məhsulların, təsərrüfat malları mağazasında isə ailə təsərrüfatları üçün müxtəlif taraların satışı həyata keçirilir.

Çörək sexi istehsal sahəsi, mətbəx, anbar və texniki otaqlardan ibarətdir. Sahibkar Rövşən Abbasov çörək sexinin fəaliyyəti üçün yaradılan şəraitə görə minnətdarlıq edib.

Xidmət mərkəzində 10 nəfər işlə təmin olunub, həyətdə abadlıq işləri aparılıb.

Ali Məclisin Sədri xidmət mərkəzində əhalinin tələbatına uyğun məhsulların satışına üstünlük verilməsi barədə tapşırıqlar verib.

Sonra qəsəbə sakinləri ilə görüş olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Badamlı qəsəbəsində görülən işlər münasibətilə sakinləri təbrik edib, əməyi olanlara təşəkkürünü bildirərək deyib: Bu gün ölkəmizdə ümummilli lider Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, kəndlərimiz, qəsəbələrimiz, rayonlarımız, şəhərlərimiz abadlaşır, əhalinin rahat yaşayışı təmin edilir. Şahbuz rayonunun Badamlı qəsəbəsi də abadlaşan yaşayış məntəqələrindəndir. Dövlət qayğısı nəticəsində ötən dövrdə qəsəbədə kompleks quruculuq işləri görülmüşdür. Məktəb və qəsəbə mərkəzi tikilmiş, mənzillər dayanıqlı təbii qaz, elektrik enerjisi və rabitə xidməti ilə təmin olunmuşdur. Bu gün isə qəsəbə yolu və xidmət mərkəzi istifadəyə verilir.

* * *

Quruculuq işləri aparılarkən Badamlı qəsəbəsindəki 48 mənzilli 6 yaşayış binası da yenidən qurulub, dam örtükləri dəyişdirilib, elektrik və su sistemi yenilənib, fasadları təmir olunub. Binaların həyətlərində də abadlıq işləri aparılıb, asfalt döşənib, yaşıllıq sahələri salınıb.

## Badamlı mineral suyu müasir zavod kompleksində istehsal olunacaq

Sentyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "Badamlı" Mineral Sular Zavodunun inşası ilə maraqlanıb.

Bildirilib ki, zavodda və ikimərtəbəli inzibati binada əsas tikinti işləri başa çatdırılıb. Zavodun ərazisinə asfalt örtük salınmış, Badamlı suyunun mənbəyi yenidən qurulmuşdur. Su öz axını ilə zavoda veriləcəkdir. Xammal anbarı, istehsal və hazır məhsul sahələrindən ibarət olacaq zavodda Fransanın "SİDEL" şirkətinin istehsalı olan ən müasir avadanlıqlar quraşdırılır. Üç istehsal xətti olacaq zavodda qazlı və qazsız olmaqla müxtəlif ölçülü qablaşdırmada 15 növdə Badamlı suyu istehsal ediləcəkdir. İstehsal prosesi tam avtomatlaşdırılacaq, məhsulların keyfiyyəti nəzarətdə saxlanılacaqdır. İstifadəyə verildikdən sonra zavodda 200-ə yaxın iş yeri açılacaqdır.

Ali Məclisin Sədri zavodda işlərin ilin sonuna qədər başa çatdırılması, ərazinin abadlaşdırılması və yaşıllıqların salınması barədə tapşırıqlar verib.

# Altay HƏSƏNOV: "Əsas hədəfimiz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmaqdır"



Sentyabrın 16-dan 22-dək Bakıda bədii gimnastika üzrə dünya çempionatı keçiriləcək. Ölkəmizdə ilk dəfə bədii gimnastika üzrə dünya birinciliyi 2005-ci ildə keçirilib.

Birinci dəfə idi ki, Azərbaycan Olimpiya idman növü üzrə dünya çempionatına evsahibliyi edirdi. Həmin vaxtdan sonra biz dəfələrlə Avropa çempionatları, dünya kuboku yarışları keçirmişik və müəyyən təcrübə toplamışıq.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov sentyabrın 11-də dünya çempionatının açılış mərasiminin yoxlama məşqi zamanı jurnalistlərə müsahibəsində deyib.

A.Həsənov bildirib: "Dünya çempionatına tam hazırıq. İnanırıq ki, çempionat yüksək səviyyədə təşkil olunacaq. Bakıda keçiriləcək yarışa maraq böyükdür. Biletlərin 45 faizi xaricdən alınıb. Dünya çempionatında 61 ölkədən gimnastlar iştirak edəcəklər. İnanıram ki, yarışları izləyən tamaşaçılar bizim komandaya fəal dəstək verəcəklər. Ona görə də media vasitəsilə hamını bu gözəl idman bayramına dəvət edirəm".

Gimnastlarımızın dünya çempionatına hazırlığından danışan Altay Həsənov deyib: "Əsas hədəfimiz "Tokio 2020" Yay Olimpiya Oyunlarına lisenziya qazanmaqdır. Bilirsiniz ki, bu dünya çempionatı Tokioda keçiriləcək Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır. Bu baxımdan çempionatda uğur qazanmaq bizim üçün çox vacibdir".

# İki sosial paket - iki yeni rekord

## Prezident İlham Əliyevin davamlı islahatları nəticəsində dövlətçilik tariximizdə ilk dəfə olaraq minimum əməkhaqqı və pensiya yaşayış minimumunu üstələyir

*Əvvəli 1-ci səh.*

Minimum əməkhaqqının artırılması bütün 19 dərəcə üzrə öz təsirini göstərəcək. Bəzi tarif cədvəlləri üzrə artımın 70 manat, bəzi cədvəllərdə 100 manat olacağı gözlənilir. Əgər minimum əməkhaqqı 950 min nəfəri əhatə edirsə, xüsusi rütbəlilər və dövlət qulluğunun müxtəlif növləri üzrə çalışanların 400 min nəfər olduğunu nəzərə alsaq, onda 1 milyon 350 min nəfərin əməkhaqqı artımından söhbət gedir.

Pensiyaların artımına gəldikdə isə əgər pensiyalar martın 1-dən 160 manata çatdırılmışdırsa, oktyabrın 1-dən həmin məbləğ 200 manata qaldırılacaq. Birinci islahat paketi təqribən 233 min, ikinci islahat paketi 660 min pensiyaçını əhatə edəcək. Bununla yanaşı müavinət və təqaüdləri də nəzərə alsaq, onda həyata keçirilən islahatlar 300 min əlili, 500 min qaçqını, 100 min tələbəni əhatə edəcək.

İkinci sosial paketin tətbiqi özəl sektorda da işçi qüvvəsinin cəlb olunması üçün əlavə stimul yaradır.

Son altı ayın statistikasına nəzər yetirəndə bu sahədə müsbət tendensiyanı görmək mümkündür. İlk növbədə əmək müqavilələrinin sayı təqribən 7 faiz artıb. Digər tərəfdən əməkhaqqı fondunda 18 faiz artım yaranıb. Bu, özəl sektorda 23 faiz artım deməkdir.

Minimum əməkhaqqının artırılması haqqında sərəncam 260 minə yaxın təhsil işçisini əhatə edəcək. İqtisadi fəaliyyət növünün təsnifatına görə muzdla işləyənlərin 23 faizini təhsil işçiləri təşkil edir. Təhsil işçilərinin ödəniş sistemi iki qrupa bölünür: diaqnostik qiymətləndirmədən keçən və vahid tarif cədvəli ilə əməkhaqqı alanlar. Pedaqoji işçilərin 150 min nəfərini diaqnostik qiymətləndirmədən keçənlər, 100 min nəfərini vahid tarif cədvəli ilə əməkhaqqı alanlar təşkil edir. Birinci qrup üzrə orta aylıq əməkhaqqı 20, ikinci qrup üzrə 40 faiz artırılıb. Əməkhaqqı artımları təhsil işçilərinin sosial müdafiəsini gücləndirməklə yanaşı, eyni zamanda təhsilin keyfiyyətinə də müsbət təsir göstərəcək. Bu, Azərbaycanda müəllimlərə, təhsil işçilərinə hər zaman göstərilən yüksək qayğı və diqqətin bariz nümunələrindən biridir.

Əlbəttə ki, bütün bunlar ölkəmizin iqtisadi inkişafının uğurlarının bariz nəticəsi və Prezidentin sosial islahatların ardıcıl, davamlı aparılmasına ayırdığı diqqətin, eləcə də vətəndaşların rifah halına göstərdiyi qayğının danılmaz ifadəsidir.

Atılan addımlar dövlət başçısının çoxşaxəli sosial siyasətinin təzahür formalarının yalnız bir hissəsidir. Görünən odur ki, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün dövlət başçısının böyük sosial islahatlar paketi çərçivəsində hələ çox qərarlar qəbul olunacaq. Hər islahatın uğur meyarlarından biri təbii ki, onun ardıcıl şəkildə aparılmasıdır. Məhz cənab İlham Əliyevin ardıcıl şəkildə həyata keçirdiyi sosial islahatlar xalqın rifah halının daha da yaxşılaşmasına xidmət edir.

Əgər diqqət etsək görərik ki, Prezidentin fərman və sərəncamları ilə ilin əvvəlindən başlanan sosial islahatlardan əhalinin bütün kateqoriyaları yararlanıb. Son 9 ayda elə bir sahə yoxdur ki, maaşlarda, sosial müavinətlərdə, təqaüdlərdə artımlar edilməsin.

Məsələn, Prezidentin müvafiq fərmanına əsasən 12268 şəhid ailəsinə dövlət tərəfindən 11 min manat birdəfəlik ödəniş edilir. Bugünədək artıq 11 507 şəhidin 17 111 vərəsəsinin birdəfəlik ödəmə ilə təminatına dair qərar qəbul edilib. Şəhidlərin vərəsələrinin birdəfəlik ödəmə ilə təminatı proqramı artıq 94 faiz icra olunub.

Bundan başqa, Prezidentin sərəncamına əsasən şəhid ailələrinə verilən Prezident təqaüdü 242 manatdan 300 manata qaldırılıb. "Milli Qəhrəman" adı verilmiş hər bir şəxs üçün Prezident təqaüdünün aylıq məbləği 1000 manatdan 1300 manata yüksəlib.

Əfqanıstan müharibəsində həlak olan, itkin düşən və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailəsi üçün Prezident təqaüdünün aylıq məbləği 220 manatdan 300 manata qalxıb.

Məcburi köçkünlərə verilən aylıq müavinətlər 50 faiz qaldırılıb. Sərəncama qədər məcburi köçkünlərdən 81 min 476 nəfəri 22 manat, 415 min 81 nəfəri 40 manat məbləğində vahid aylıq müavinət alırdı. Aprelin 1-dən isə həmin məbləğlər, müvafiq olaraq, 33 və 60 manat təşkil edir.

Eyni zamanda ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, Çernobl qəzasının ləğvi ilə əlaqədar əlilliyi olanlar üçün (əmək pensiyası hüququ olmayan) ayrılan vəsaitdə və digər sosial müavinətlərdə də artımlar edilib.

Bir sözlə, birinci sosial paketə əsasən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər 100 faiz, 9 kateqoriya üzrə Prezidentin aylıq təqaüdü orta hesabla 100 faiz, ikinci sosial paketə əsasən isə 1 milyon 350 min işçinin əməkhaqqı artdı. Oktyabrın 1-dən isə 750 min pensiyaçıya verilən vəsait yüksələcək.

Ümumiyyətlə isə 2003-cü ilə nisbətən ölkə üzrə minimum əməkhaqqı 27,7 dəfə artırılaraq 250 manata, orta aylıq əməkhaqqı isə 7,5 dəfə artaraq 77,4 manatdan 581,2 manata çatıb.

Onu da əlavə edək ki, Azərbaycanın dövlətçilik tarixində ilk dəfə olaraq minimum əməkhaqqı yaşayış minimumunu (180 manat) 40 faiz üstələyib. Digər tərəfdən, ölkəmizdə minimum pensiya məbləği də pensiyaçılar üçün yaşayış minimumunu (149 manat) 34,2 faizədək üstələyəcək.

Prezident İlham Əliyev Azərbaycan vətəndaşlarının əmək hüquqlarının qorunmasını, işçilərin maddi və sosial təminatının genişləndirilməsini və onlara layiqli həyat şəraitinin yaradılmasını ölkədə həyata keçirilən sosial siyasətin prioritet istiqamətlərindən biri olduğunu öz çıxışlarında dəfələrlə qeyd edib. Ötən dövrdə həyata keçirilən tədbirlər sistemli və məqsədyönlü xarakter daşıyır. Əgər minimum əməkhaqqının artım dinamikasına diqqət yetirsək, heç bir vaxt builki qədər artım müşahidə edilmədiyini görərik.

Minimum əməkhaqqının, pensiya və təqaüdlərin artırılması ölkədə həyata keçirilən sosialyönümlü islahatların mərkəzində insan amilinin dayandığını bir daha sübut edir. Ölkədəki sabitliyin və iqtisadi inkişafın təzahürü olan sosial siyasətin xalqın daha uğurlu sabahına, daha yaxşı yaşamasına yönəldiyini təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Mariana VASİLEVA: "Bakıda keçiriləcək dünya çempionatının açılış mərasimində 200 yerli gimnast çıxış edəcək"

Bakıda keçiriləcək bədii gimnastika üzrə 37-ci dünya çempionatı Olimpiya Oyunları öncəsi ən vacib yarışdır. Çünki çempionat 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziya xarakteri daşıyır.



AZƏRTAC xəbər verir ki, bunu bədii gimnastika üzrə Azərbaycan milli komandasının baş məşqçisi Mariana Vasileva sentyabrın 11-də dünya çempionatının açılış mərasiminin yoxlama məşqi zamanı jurnalistlərə müsahibəsində deyib.

Yarışda 61 ölkədən 300-dən çox gimnastın mübarizə aparacağını bildirən baş məşqçi qeyd edib: "Çempionata 9 idmançı ilə qatılacaq. Fərdi proqram üzrə liderlərimiz Zöhrə Ağamirova və Veronika Qudisdir. Həmçinin turnirdə ölkəmizi gənc gimnastlar Yelizaveta Luzan və Məryəm Səfərova da təmsil edəcəklər. Qrup hərəkətlərində isə komandamızın heyətində Ayşən Bayramova, Diana Əhmədbəyli, Aliyə Paşayeva, Zeynəb Hümmətova və Darya Sorokina yer alıblar. "Açılış mərasiminə hazırlıq yüksək səviyyədə gedir. Mərasimdə 200 yerli gimnastın çıxışı nəzərdə tutulub. Açılışın bədii hissəsi isə "Şərq nağılı" adlanır. Bütün tamaşaçıları mərasimə və yarışa baxmağa dəvət edirəm", - deyə M.Vasileva bildirib.

# "Öndəki birincilər" layihəsi uğurla davam etdirilir

**Sentyabrın 11-də Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən həyata keçirilən "Öndəki birincilər" layihəsi çərçivəsində cəbhəyanı bölgələrdə yaşayan aztəminatlı ailələrin birinci sinifə gedəcək şagirdlərinə məktəbli formaları hədiyyə edilib.**



Layihə çərçivəsində Füzuli, Ağcabədi, Laçın, Ağdam, Tərtərdə, eləcə də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində məktəblilərlə görüş keçirilib. Mənəvi Dəyərlərin Təbliği Fonduna təşəkkür edən valideynlər və birinci sinfə gedəcək şagirdlər məktəblilərə göstərilən dövlət qayğısına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.



Məktəblilərlə görüşdə Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov, fondun icraçı direktor müavini Rəfi Qurbanov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ağcabədi bölgəsi üzrə şöbəsinin müdiri Əlizadə Nəcəfov iştirak ediblər.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# ATƏT-dən Paşinyana sərt ittiham

## Qurumun Parlament Assambleyasının sədri Ermənistanın baş nazirinin danışıqlar prosesinə zərbə vurduğunu bəyan etdi

*Əvvəli 1-ci səh.*

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bununla bağlı bəyanatında deyilir: "Ermənistan baş nazirinin aqressiv bəyanatları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə illərdir ki, aparılan danışıqlar prosesinin ruhu və mahiyyəti ilə, o cümlədən Ermənistan və Azərbaycan arasında keçirilən sonuncu görüşlər zamanı aparılan müzakirələrlə açıq ziddiyyət təşkil edir. Bu, həmçinin ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə böyük zərbədir. Ermənistanın siyasi rəhbərinin uzun illərdir ki, aparılan danışıqların predmetinə tam zidd olan bu bəyanatı elə Ermənistanın özünün səsləndirdiyi "münaqişənin yalnız sülh yolu ilə həlli" çağırışına uyğun gəlmir. N.Paşinyanın Xankəndidə etdiyi çıxışı onun həqiqi simasını üzə çıxarmış oldu".

Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyi BMT və ATƏT-in Baş katiblərinə, habelə ATƏT-in Minsk qrupunun həmsədrləri və bu qrupun digər üzv ölkələrin Xarici İşlər nazirlərinə məktublar ünvanlayaraq Paşinyanın bəyanatları səbəbindən meydana gələn təhlükəli vəziyyətlə bağlı artıq mövqe bildirib. Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasının, habelə Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin işğalının ağır nəticələrini xatırladaraq, Paşinyanın son bəyanatlarını vəziyyətin daha da gərginləşməsinə gətirən "qırmızı xəttin" aşılması kimi qiymətləndirir.

Paşinyanın bu çağırışından sonra danışıqlar prosesinin gələcəyi barədə suala ilk növbədə ATƏT-in Minsk qrupunun həmsədrləri cavab verməli idilər. Lakin təəssüflə qeyd etməliyik ki, indiyə qədər həmsədrlər Paşinyanın bu çağırışına münasibət bildirməyiblər.

Məsələyə bu günlərdə ATƏT PA-nın sədri Giorgi Tsereteli münasibət bildirib. O, baş nazir N.Paşinyanın Dağlıq Qarabağla bağlı səsləndirdiyi bəyanatının münaqişənin nizamlanmasına və danışıqlar prosesinin gedişinə zərbə vurduğunu bildirib. ATƏT PA-nın sədri deyib: "Düşünürəm ki, münaqişənin həllinə nail olmaq məqsədi daşımayan və ölkələr arasındakı müzakirələrə töhfə verməkdən uzaq olan bu cür bəyanatların səsləndirilməsi hər zaman sülh prosesinə zərbə vurur. ATƏT məkanında, Cənubi Qafqazda mövcud olan Dağlıq Qarabağ münaqişəsi bütün dünyanın, eləcə də bizim təşkilatımızın diqqət mərkəzindədir. Biz daha çox konstruktiv bəyanatlar eşitmək istəyirik və konkret addımlar gözləyirik".

Onun sözlərinə görə, bu münaqişənin ədalətli həllinə nail olmaq üçün fikir ayrılıqlarını və fərqli düşüncələri bir araya gətirib ortaq dil tapmaq lazımdır. Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yalnız beynəlxalq hüquq çərçivəsində nail olmaq mümkündür.

ABŞ-ın Azərbaycandakı keçmiş səfiri, ATƏT-in Minsk qrupunun sabiq həmsədri, Atlantik Şuranın analitiki Metyu Brayza isə Ermənistan baş nazirinin bəyanatları ilə irəliləyiş əldə etməyin mümkün olmadığını bildirib: "Nikol Paşinyan öncə Ermənistan və Dağlıq Qarabağın vahid, daha sonra isə Dağlıq Qarabağın müstəqil olduğunu bəyan edib. Ermənistan hökumətinin yeni mövqeyi ilə məzmunlu danışıqlar aparmaq qeyri-mümkündür. Bu mövqe Azərbaycan üçün də tamamilə qəbuledilməzdir. Mediator olsaydım və Ermənistan yeni mövqeyində qalsaydı, buna aydın etiraz edib istefa verərdim. Belə ki, bu mövqe ilə irəliləyiş əldə etmək mümkün deyil. Bu, həmçinin ədalətli deyil".

Ermənistan indi müəyyən etməlidir: sülh istəyir, yoxsa vəziyyətin gərginləşməsini? Artıq belə bir təsəvvür formalaşıb ki, Ermənistanın əvvəlki terrorçu rəhbərliyi kimi, yeni iqtidarı da münaqişənin həll olunmasına deyil, bilərəkdən vəziyyətin gərginləşməsinə üstünlük verir. Bu gün rəsmi Yerevan reallıqlara əsaslanan yanaşmadan deyil, ilhaqçı mövqedən çıxış edir.

Lakin istənilən halda aydındır ki, Azərbaycan heç vaxt işğala əsaslanan status-kvo vəziyyəti ilə barışmayacaq. Bakının səbri tükənməz deyil. Bu mənada Paşinyanın Xankəndidə səsləndirdiyi fikirlər əslində erməni xalqı üçün yeni faciələr hazırlayır. Azərbaycan sülh danışıqlarına sadiq olduğunu dəfələrlə bəyan etsə də, bu prosesin ədalətli yekunlaşmayacağı təqdirdə digər vasitələrlə işğal olunmuş ərazilərini azad edəcəyini heç vaxt gizlətmir. İldənilə intensivləşən, o cümlədən mütəmadi olaraq Naxçıvanda keçirilən, bu günlərdə reallaşan hərbi təlimlər də məhz həmin məqsədə xidmət edir. Bunu Yerevanda da anlayır və haqlı olaraq təlaş keçirirlər. Ona görə özünü demokrat sayan Paşinyan xalqı üçün faciələrə səbəb olacaq hadisələr deyil, tarixi ədalətin bərpa edilməsi barədə düşünsə, daha yaxşı olardı.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Dövlət borcunun və zəmanətlərinin uçotu daha effektiv aparılacaq

Prezident İlham Əliyevin 2018-ci il 24 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" ilə müəyyən edilmiş tapşırığın icrası məqsədilə Maliyyə Nazirliyi ilə Birləşmiş Millətlər Təşkilatının Ticarət və İnkişaf Konfransı (UNCTAD) arasında Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi (DMFAS) Proqramının satın alınması və tətbiqi barədə layihə sənədi imzalanıb.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, icra müddəti 36 ay olan layihə Asiya İnkişaf Bankı (ADB) və İqtisadi İşlər üzrə Dövlət Katibliyinin (SECO) maliyyə dəstəyi (qrant şəklində) ilə həyata keçiriləcək. Layihə çərçivəsində proqram təminatının Maliyyə Nazirliyinin daimi istifadəsinə verilməsi və qurumun əməkdaşlarına müvafiq təlimlərin keçirilməsi nəzərdə tutulur.

Layihə müasir informasiya texnologiyalarının tətbiq edilməsi ilə dolğun borc məlumatlarının etibarlı saxlanılması, daha səmərəli şəkildə idarə edilməsi, eləcə də borc məlumatlarının daha effektiv təhlili əsasında funksional çərçivə üzrə strateji məqsədlərə nail olmağa töhfə verəcək. Bununla yanaşı, layihə dövlət borcunun və zəmanətlərin hesabatlılığının da təkmilləşdirilməsini hədəfləyir.

UNCTAD-ın Borcların İdarə olunması və Maliyyə Təhlili Sistemi - DMFAS Proqramının əsas məqsədi davamlı iqtisadi inkişaf, idarəetmənin təkmilləşdirilməsi və yoxsulluğun azaldılması məqsədilə dövlət borclarının daha səmərəli şəkildə idarə edilməsini təmin etməkdir. Eyni zamanda, DMFAS borc idarəetmə prosedurlarını asanlaşdırır və beynəlxalq və ölkə səviyyəsində hesabatların daha şəffaf və dəqiq hazırlanmasına şərait yaradır.

Hazırda DMFAS proqramı 60-dək ölkənin maliyyə nazirliklərinə və mərkəzi banklarına istehsal qabiliyyətlərinin artırılması istiqamətində borc məlumatlarının etibarlı şəkildə idarə edilməsinə dəstək verir.

# Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi - Yasamal Yaşayış Kompleksində mənzillərin güzəştlə satışı barədə ELAN

Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu,8 nömrəli ünvanda yerləşən Yasamal Yaşayış Kompleksinin 10-13 saylı binaları üzrə 10 mənzil, həmçinin 14, 15, 16, 17, 18, 19, 20, 21 və 22 saylı binalarında yerləşən 560 mənzilin ümumilikdə 570 mənzilin satışı 16 oktyabr 2019-cu il tarixində saat 11.00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 11.00-dək davam edəcəkdir.

"Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq **gözləmə qaydasında mənzillərin seçimi** 18 oktyabr 2019-cu il tarixində saat 11.00-da başlayacaq və 30 oktyabr 2019-cu il tarixi saat 00.00-dək davam edəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 1113 nömrəli Fərmanına əsasən Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzillərin əldə edilməsi "Elektron hökumət" portalı üzərindən (www.e-gov.az) "Güzəştli mənzil" sistemi vasitəsilə elektron qaydada həyata keçirilir.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olan vətəndaşlar mənzil almaq hüququna malikdirlər. Elektron kabinetə sahib olan bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq, mənzillərin seçimində bərabər hüquqa malikdirlər.

"Güzəştli mənzil" sistemindən istifadə qaydası ilə bağlı ətraflı məlumatla, o cümlədən mətn və video formatlı təlimatlarla www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış olmaq mümkündür.

## Satışa çıxarılan mənzillər barədə ümumi məlumat:

Satışa ümumilikdə 570 mənzil çıxarılır. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təmin edilmiş vəziyyətdə təklif olunur.

Bütün binalar Azərbaycan Respublikasının Dövlət Tikinti Normalarına (AzDTN) uyğun layihələndirilib və inşa olunub. Bununla bağlı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsinin 30.01.2017-ci il tarixli 23206 nömrəli, 31.01.2017-ci il tarixli 23210 nömrəli və 17.03.2017-ci il tarixli 23364 nömrəli müsbət rəyləri mövcuddur.

**Mənzillərə dair Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Bakı şəhər ərazi idarəsi tərəfindən mülkiyyət hüquqlarının qabaqcadan qeydiyyatı barədə arayışlar verilmişdir.**

| Bina № | Binanın yerləşdiyi torpaq sahəsi (m²) | Binada mərtəbə sayı | Binaya giriş sayı | Mənzillərin otaqlarının sayı | Mənzillərin sayı | Mənzillərin daxili perimetr üzrə sahəsi (m²) | Mənzillərin xarici perimetr üzrə sahəsi (m²) | Baş podratçı / ünvanı | Tikinti-quraşdırma və təmir işlərinin başaçatma tarixi |
|---|---|---|---|---|---|---|---|---|---|
| 10 | 441,56 | 12 | 1 | 2 | 1 | 56,87 | 70,44 | "Hovers Group" MMC / Bakı şəhəri, Nəsimi rayonu, Abbas Səhhət küçəsi, ev 73 | 10 oktyabr 2018-ci il |
| 11 | 665,32 | 9 | 2 | 2 | 3 | 54,65-55,07 | 66,91 | | |
| 12 | 441,56 | 12 | 1 | 3 | 1 | 70,46 | 84,47 | "SMT İnşaat" MMC / Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 44 | 1 aprel 2019-cu il |
| 13 | 665,32 | 9 | 2 | 2 | 5 | 54,73-55,07 | 66,91 | | |
| 14 | 1507,97 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "Caspian CLC" MMC / Bakı şəhəri, Binəqədi rayonu, keçid 1410, 6-cı mikrorayon, ev 15/2, mənzil 89 | 1 aprel 2019-cu il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 15 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 16 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "AS Tikinti" MMC / Bakı şəhəri, Nəsimi rayonu, 28 May küçəsi, ev 10, mənzil 18 | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 17 | 1507,97 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | | |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 18 | 665,32 | 9 | 2 | 1 | 8 | 33,10-33,37 | 40,52 | "Araz İnşaatçı" MMC / Bakı şəhəri, Nərimanov rayonu, Həsənoğlu küçəsi, məhəllə 851, mənzil 10/86 | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 48 | 50,16-55,14 | 60,10-66,91 | | |
| | | | | 3 | 8 | 69,47-69,73 | 84,47 | | |
| 19 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 20 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | "MƏK-AN" MMM / Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi,26N. | 22 dekabr 2018-ci il |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 21 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |
| 22 | 441,56 | 12 | 1 | 1 | 12 | 31,50-33,01 | 40,12 | | |
| | | | | 2 | 24 | 56,85-57,87 | 70,44 | | |
| | | | | 3 | 24 | 69,80-70,46 | 84,47 | | |

## Satış şərtləri və qiymətlər:

Bu elan çərçivəsində mənzillərin satışı həm **ipoteka kreditindən istifadə etməklə (yalnız ilkin razılıq qərarını alaraq elektron kabinetində yerləşdirilməsini təmin edən vətəndaşlar)**, həm də **öz vəsaiti hesabına** ödəniş üsulu ilə nəzərdə tutulmuşdur.

1 otaqlı mənzillərin qiyməti – **29 925** manatdan,

2 otaqlı mənzillərin qiyməti – **47 652** manatdan,

3 otaqlı mənzillərin qiyməti – **65 997** manatdan başlayır.

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Vətəndaş mənzili Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun güzəştli ipoteka krediti vəsaiti hesabına aldıqda:

| İllik faiz dərəcəsi | Müddət | Minimal ilkin ödəniş | Aylıq ödəniş* | | |
|---|---|---|---|---|---|
| | | | *1 otaqlı* | *2 otaqlı* | *3 otaqlı* |
| 4% | 3-30 il | 10% | **129-136 manat** | **205-236 manat** | **284-288 manat** |

* Aylıq ödəniş – mənzil 10% ilkin ödəniş edilərək, 4% dərəcəsi ilə 30 il müddətinə güzəştli ipoteka krediti ilə alındıqda.

**DİQQƏT! Mənzilə güzəştli ipoteka krediti vasitəsilə sahib olmaq istəyən vətəndaş minimal ilkin ödənişdən artıq ödənilən məbləğə görə, mənzilin satış qiymətini tam həcmdə öz vəsaiti hesabına birdəfəlik ödəyən vətəndaş isə bütün məbləğə əlavə 10% endirim əldə edəcək.**

**Mənzilə öz vəsaiti hesabına birdəfəlik ödəniş edərək sahib olmaq istəyən vətəndaş üçün mənzillərin satışı aşağıdakı qiymətlərdən başlayır:**

| Otaqların sayı | Mənzilin qiyməti (manatla) | Əlavə endirim məbləği (manatla) | Əlavə endirimdən sonra mənzilin satış qiyməti (manatla) |
|---|---|---|---|
| 1 | 29 925 | 2 992 | **26 933** |
| 2 | 47 652 | 4 765 | **42 887** |
| 3 | 65 997 | 6 600 | **59 397** |

***Qeyd: Mənzillərin satış qiymətinə ƏDV daxildir.***

Yasamal Yaşayış Kompleksinin **www.yasamal.mida.az** internet səhifəsinə daxil olaraq satışa çıxarılan hər bir mənzilin (və otaqlarının) dəqiq ölçüsü, qiyməti, tətbiq edilən güzəştlər və əlavə endirimlər, agent banklar haqqında məlumatla tanış olmaq, habelə ipoteka və güzəştli mənzil kalkulyatorları vasitəsilə müvafiq hesablamalar aparmaq mümkündür.

Güzəştlə mənzil əldə etmək hüququ olan şəxslər, mənzili güzəştlə əldə etmək üçün ərizənin təqdim olunması qaydası, gözləmə qaydasında mənzillərin seçimi və mənzillərin satış şərtləri, agent banklar barədə ətraflı məlumatla **www.mida.gov.az** və **www.mida.az** internet səhifələrində və ya müvafiq "ASAN xidmət" mərkəzlərinə (1, 3, 5 saylı və Sumqayıt), habelə "108" çağrı mərkəzinə müraciət edərək tanış ola bilərlər.

***Qeyd:** "Güzəştli mənzil" sisteminin istifadəçiləri satış modulundan istifadəyə dair və gözləmə qaydasında mənzil seçiminə dair təlimatlar ilə öz elektron kabinetlərinin müvafiq bölmələrində və ya www.mida.gov.az və www.mida.az internet saytlarının ana səhifələrində "Güzəştli mənzil sistemi" keçidi vasitəsilə tanış ola bilərlər.*

# Yeni dərs ili qarşısında

## Əkiz qardaşlar Bakı Ali Neft Məktəbini seçiblər




**Rəşad və Rəşid Azadlı qardaşları yüksək bal toplayaraq (Rəşad 679.3 bal, Rəşid 663 bal) Bakı Ali Neft Məktəbinin (BANM) neft-qaz mühəndisliyi ixtisasını seçiblər.**

Neft-qaz sənayesinə maraq atalarının uzun illər SOCAR-ın Qaz İxrac İdarəsində işləməsi ilə yaranıb. Bununla belə, valideynləri onların ixtisas seçimlərinə heç bir müdaxilə etməyiblər. Onlar ixtisasları üzrə Bakı Ali Neft Məktəbində peşəkar ingilisdilli mühəndis kimi yetişəcəklərinə əmindirlər.

Rəşad deyir ki, əkiz olduqları üçün maraq dairələri də eynidir. Hər ikisi tennis oynamağı çox sevir. Əkizlər BANM-də eyni ixtisasla yanaşı, həm də eyni qrupda təhsil alacaqlar.

Hər iki qardaş Bakı şəhəri 147 saylı Texniki Humanitar Liseyinin məzunudur.

Rəşad Azadlı Prezident İlham Əliyev tərəfindən imzalanmış sərəncama əsasən, 2019/2020-ci tədris ilində tələbə qəbulu imtahanlarında I ixtisas qrupu üzrə ən yüksək nəticələr göstərmiş və Bakı Ali Neft Məktəbinə daxil olmuş Prezident təqaüdçülərindən biridir.

Qeyd edək ki, dövlət başçısının müvafiq sərəncamı ilə yeni tədris ilində 23 BANM tələbəsi Prezident təqaüdü alacaq.

***"Azərbaycan"***

## Xocalılılar təhsildə yüksək nəticələr əldə edirlər

**Ötən illər ərzində doğma ocaqlarında doğulmayan, ata-baba yurdu yağmalanan xocalılılar artıq ömürlərinin gənclik dövründədirlər: 27 yaşları var. Onlar yaşadıqları illəri Xocalısız keçirsələr də, ulu yurd yerlərinin coğrafiyasını, mədəniyyətini, tarixini, etnoqrafiyasını öyrənmək üçün daha dərin biliklərə yiyələnməyə çalışırlar. Ötən illər ərzində məktəbyaşlı xocalılıların ictimaiyyətdə, elm və təhsildə qazandığı nailiyyətlər isə az olmayıb.**






Xocalının Kosalar kəndində dünyaya göz açmış Dövlət İmtahan Mərkəzinin Gəncə Regional Bölməsinin sədri Nəsimi Məmmədov canları-qanları ilə o yerlərə bağlı xocalılı şagirdlərin valideynlərinin üzləşdiyi fəlakətin, talelərində buraxdığı izin heç zaman unudulmayacağını dilə gətirərək dedi ki, dövlət başçısının məcburi köçkün soydaşlarımızın, o cümlədən məktəblilərin sosial problemlərinin həlli istiqamətində həyata keçirdiyi humanist siyasətinin nəticəsidir ki, bu gün nəinki respublikamızın, Avropanın, yaxın-uzaq dost və qonşu dövlətlərin də nüfuzlu ali təhsil ocaqlarından onların sorağı gəlir: "...Erməni vandalları Xocalı şagirdlərinin doğma məktəblərini, sinif otaqlarını əllərindən alıb darmadağın etdilər. Məktəbsiz, müəllimsiz qalan uşaqlar respublikanın 40-dan artıq yaşayış məntəqəsində məskunlaşdılar. Xocalı məktəblilərinin ixtiyarında 12 tam orta, bir Uşaq Gənclər İnkişaf Mərkəzi var. Bu təhsil ocaqları Xocalı əhalisinin daha çox məskunlaşdığı 5 bölgədə (Bakı, Gəncə, Şəki, Oğuz, Goranboy) fəaliyyət göstərirlər. Onlardan 9-u "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması" Dövlət Proqramına uyğun olaraq yeni inşa olunmuş müasir tipli, Xocalı şəhər 2 nömrəli, Kərkicahan qəsəbə və Qaragav kənd tam orta məktəbləri isə uyğunlaşdırılmış binalarda fəaliyyət göstərir".

Xocalı Rayon Təhsil Şöbəsinin müdiri Şakir Əliyev son illərin uğurları, problem və qayğıları ilə bağlı fikirlərini bölüşərkən bildirdi ki, 2019-cu ildə Dövlət İmtahan Mərkəzi tərəfindən rayonun IX və XI siniflər üzrə buraxılış imtahanı, ali məktəblərə isə qəbul imtahanı keçirilib. IX siniflər üzrə iki mərhələdə keçirilən buraxılış imtahanında yeni model tətbiq olunub və nəticələr yüksək balla qiymətləndirilib..."

Hələ ötən tədris ilində ali məktəblərə qəbul olunanlardan 5 nəfəri 500-dən (Xocalı şəhər 2, 3 və 5 nömrəli, Kərkicahan, Kosalar kənd tam orta məktəblərinin hər birindən bir nəfər), 3-ü isə 600-dən yuxarı balla seçdikləri ixtisasa qəbul olmuşdu.

Xocalı məktəbləri tədris üçün lazım olan avadanlıq, Təhsil Nazirliyindən alınan 46 adda 4800 ədəd olmaqla, pulsuz dərsliklərlə tam təmin olunub. Rayonun təhsil müəssisələrindəki 135 ədəd kompüter dəsti də onların ixtiyarındadır.

Dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən, Xocalı məktəbliləri ötən il iki dəfə "Ölkəmizi tanıyaq" devizi altında keçirilən gəzintidə iştirak edib. Bu, təbii ki, onların respublikamızın müxtəlif bölgələrinin tarixi, mədəniyyəti və sosial-iqtisadi inkişafı haqqında məlumatlandırılması baxımından mühüm vasitədir.

Xocalı RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Lamiyyə Qarayeva deyir: "Son illər Xocalının təhsil müəssisələrində göstəricilər ürəkaçandır. Ötən il 125 məzundan 54-ü ali, 25 nəfəri isə orta ixtisas məktəblərinin tələbəsi adına layiq görülüblər. Ötənilkindən fərqli olaraq, bu il ali məktəb auditoriyalarının qapılarını açan məzunlarımızdan 18 nəfəri 400-500 arası, 7-si 500-600, 2-si isə 600 baldan yuxarı göstərici ilə tələbə adı qazanıb digərlərindən fərqləniblər. Onu da qeyd edək ki, doqquzuncu sinif üzrə bitirən məzunlardan bir nəfəri C.Naxçıvanski adına hərbi liseyə, 6-sı isə müxtəlif orta-ixtisas məktəblərinə qəbul olub".

Pirşağı qəsəbəsində fəaliyyət göstərən Xocalı şəhər 2 nömrəli tam orta məktəbinin direktoru Füqurə Rüstəmova konkret olaraq bu il 500 baldan yuxarı göstəricilərlə respublikanın müxtəlif və nüfuzlu ali məktəblərinə qəbul olan məzunlarının adlarını fərəhlə çəkdi: "Vəfa Xurşudova, İlkin Mehbalıyev, Vaqif Ağayev, Yusif Zeynalov, Piyalə Quliyeva, Şahin Məmmədov, Əşrəf Əsgərov, Vüsal Həsənəliyev, Ləman Həsənova kimi məzunlarımızla fəxr edə bilərik. Adlarını çəkdiyim şagirdlərimiz bu il Xocalı məktəblərinin məzunları arasında 500 və 600 baldan yuxarı göstəricilərlə tələbə adına layiq görülüblər. Həmçinin onlardan biri C. Naxçıvanski adına ali hərbi liseyə qəbul olub".

Daim tələbə, abituriyent, məktəblilərlə həmsöhbət olan, onların qayğı və problemləri ilə bağlı düşüncələrini bölüşən həmsöhbətimiz Xocalının dəhşətli günlərinə bir daha boylandı, lakin çox şey deyə bilmədi. Bu dəfə onu xatırlatdı ki, Xocalıda doğulmayan məktəblilərimiz o yerlərin həsrətini çəkməklə yanaşı, müstəqil dövlətimizin işğal edilmiş ərazilərinin azad edilməsi uğrunda aparılan siyasi, ideoloji təbliğatda yaxından iştirak edirlər. Onlar ildən-ilə elm və təhsildə uğurlar əldə etmələri ilə də fəallıq göstərirlər. Bununla yanaşı, Xocalı faciəsi ötən müddət ərzində təkcə siyasətçilərin deyil, yaradıcı insanların da əsas mövzularından birinə çevrilib. Bu faciə barədə bədii əsərlər yaranıb. Zaman keçdikcə faciənin ağrı-acıları daha yanıqlı və ağrıdıcı olur: "Bu mövzu yalnız şair və yazıçılarımızın, jurnalistlərimizin deyil, eyni zamanda təhsil sahəsində çalışanların da yaradıcılığında əks olunmaqdadır. Şagirdlərimiz həmin əsərlər vasitəsilə Xocalı müsibəti və soyqırımını, eləcə də digər faciələrimizi yaddaşlara yazırlar.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

# Ən yaxşı arı cinsi və bal Azərbaycana məxsusdur

## Beynəlxalq ekspertlərin fikri belədir

Əvvəli 1-ci səh.



Azərbaycanın arı genofondu iki növə bölünür - Bozdağ Qafqaz arısı və Sarı İran arısı. Bozdağ Qafqaz arısının Qabaqtəpə və Şahdağ populyasiyası, Sarı İran arısının isə Lənkəran və Sarı İran populyasiyası mövcuddur.

Bozdağ Qafqaz arı cinsi öz sakitliyinə və xortumunun uzunluğuna görə Sarı Qafqaz arı cinsindən fərqlənir. Ən uzun xortumlu arılardan biri də Qabaqtəpə arı populyasiyası hesab olunur. Bu arı növü ilk dəfə 1906-cı ildə elmi cəhətdən aşkar edilib. Beləliklə, bu növ dünyada məşhurlaşıb. Bu gün dünyada ən çox bal istehsal edən ölkələrdən biri olan ABŞ-dakı arıların əcdadı da Qabaqtəpə arılarından törəmələrdir. Sovetlər dönəmində də Azərbaycanda Qabaqtəpə arılarının yetişdirilməsi üçün qoruq və stansiyalar yaradılmışdı. Burada yetişdirilən ana arılar dünyanın 40-a qədər ölkəsinə damazlıq olaraq göndərilib.

Bu populyasiyalar özləri də müxtəlif yerlərə bölünür. Onların içərisində yerli arı genofondumuzun "qızıl arısı" sayılan Qabaqtəpə arısı xüsusilə fərqlənir. "Qızıl arı" məşhur Bozdağ Qafqaz arısının bütün müsbət xüsusiyyətlərini özündə birləşdirir. Bununla yanaşı, ondan üstün olaraq sürətlə inkişaf etmək, soyuğa dözümlülük, küləkli iqlim şəraitinə uyğunlaşmaq, eləcə də floramiqrasiya göstəricisi ilə seçilir. Həmin növ arılar yüksək məhsuldarlığa da malikdir. Onlar başqa arılardan fərqli olaraq, gün ərzində nektar ardınca uçuşa tez başlayıb gec qayıdır ki, nəticədə topladıqları balın keyfiyyət və kəmiyyətinə görə üstünlük əldə edirlər.

Azərbaycan balı dünyada ən keyfiyyətli bal hesab olunur. FAO-nun Azərbaycan ofisinin rəhbəri Mələk Çakmakın deyir: "Beynəlxalq ekspertlərin fikrincə, ən yaxşı arı cinsi və ən yaxşı bal Azərbaycana məxsusdur. Biz də bu məhsulun daha çox istehsal edilib dünya bazarına çıxarılmasına dəstək verməyə çalışırıq".

Azərbaycanda arıçılığın inkişafı yeni dövrə qədəm qoyub. Dövlət tərəfindən həyata keçirilən aqrar islahatlarda arıçılığın inkişafına xüsusi önəm verilir. Bu sahədə Prezidentin "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" sərəncamı mühüm rol oynayır. Sərəncamda qeyd edilir ki, ölkəmizdə bal verən 600-ə qədər bitki növü mövcuddur. Bunların da təxminən 200-ü nektar və çiçək tozu mənbəyi kimi arıçılığın genişləndirilməsi üçün daha böyük imkanlar yaradır. Hər bir arı 15 kilometr məsafə qət edərək şirə yığa bilir.

Ölkədə arıçılığı inkişaf etdirmək məqsədi ilə son illər bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun nəzdində Arıçılıq Mərkəzi yaradılıb, həmçinin Azərbaycan Arıçılar Assosiasiyası təsis edilib. Hazırda damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genofond arıxanaların yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, sərgi-satış yarmarkalarının təşkili və s. istiqamətlərdə məqsədyönlü tədbirlər görülür. Bu tədbirlərin nəticəsi olaraq, arı ailələrinin sayında, bal və digər arıçılıq məhsullarının istehsalında, eləcə də ixracında əhəmiyyətli artım müşahidə edilir.

Həmin sərəncama əsasən, arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə 5 il müddətində 10 manat məbləğində subsidiya verilir. Bununla yanaşı, dövlət büdcəsindən yüksək məhsuldar bal arılarının yetişdirilməsi və arıçılıq məhsullarının istehsalının artırılması üçün bu sahədə seleksiya və damazlıq işlərinin yaxşılaşdırılması üçün vəsait ayrılıb. Arıçılığın dövlət tərəfindən stimullaşdırılması bu sahədə məhsul istehsalının da ildən-ilə artmasına imkan verir. Belə ki, arıçılıq haqqında qanunun qəbul edilməsindən ötən 9 il ərzində arı ailələrinin sayı 1,9 dəfə, arıçılıqla məşğul olan təsərrüfatlarda hər təsərrüfata düşən arı ailələrinin sayı 11,1-dən 12,8-dək çatıb, bal istehsalı isə 2,2 dəfə artıb. Bu artım arıçılığın inkişafına verilən dövlət dəstəyinin nəticəsidir.

Dünyada 20 mindən çox arı növü mövcuddur. Antarktidadan başqa dünyanın hər yerində arıya rast gəlmək olar. Dünyanın 150-dək ölkəsində arıçılıq təsərrüfatları mövcuddur. Lakin bu ölkələrin hamısında arıçılıq müəyyən səbəblərə görə yüksək səviyyədə inkişaf etməyib. Bu sahədə liderlik Hindistan, Çin, Türkiyə, Efiopiya, İran, Rusiya, Argentina, Tanzaniya, Keniya və ABŞ kimi ölkələrə məxsusdur.

Dünyada il ərzində təxminən 1.5 milyon ton bal istehsal olunur ki, bunun da 1.260 milyon tonu 20 ölkənin payına düşür. Həmin 20 ölkə arasında 5 ölkə - Çin, Türkiyə, Argentina, Ukrayna və ABŞ daha çox məhsul istehsal edir. Adıçəkilən ölkələr dünya üzrə ümumi bal istehsalının 730 min tonuna sahibdirlər ki, bu da dünya istehsalının 50 faizinə yaxındır. Hasil edilən balın 600 min tona yaxını beynəlxalq bazarlar vasitəsilə ixrac edilir. Ümumilikdə 150 ölkədən bal ixrac edilir ki, bu işlə 460 şirkət məşğul olur.

Çin hazırda arıçılıq sektorunun inkişafı sahəsində lider mövqeyini qoruyur. Həmin ölkədə 9 milyona yaxın arı ailəsi hesabına 450 min ton bal, 4 min ton arı südü, 350 ton propolis istehsal edilir. Çində 2011-2016-cı illər üzrə arıçılığın inkişafı üzrə Dövlət Proqramı qəbul edilib. Məqsəd arı ailələrinin sayını 10 milyona (hazırki 8,6 milyondan), bal istehsalını 500 min tona (hazırki 450 min tondan) çatdırmaqdır. Arıçılıq Çinin iqtisadiyyatına 40 milyard dollardan çox fayda gətirir. Dünyada istehsal edilən arı südünün isə 95 faizinə qədəri Çinin payına düşür.

Türkiyə bal istehsalının həcminə görə Çindən sonra ikinci yerdə qərarlaşıb. İllik bal istehsalının həcmi 95 min tona çatır. Bundan təxminən 10 min tonu ixrac edilir. Ölkə üzrə arı ailələrinin sayı 6,6 milyon ətrafındadır. Arı ailələrinin orta balverimi 15-16 kiloqram təşkil edir. Ölkədə təxminən 80 min nəfər arıçılıqla məşğul olur. Bu ölkədə arıçılıq sektoruna dövlət dəstəyi mexanizmləri mövcuddur. Belə ki, ana arı yetişdirən arıçılıq təsərrüfatları hər biri üçün 4 lirə dəstək alırlar. 2013-cü ildən başlayaraq hər bir arı ailəsi üçün arıçılara 8 lirə, orqanik arıçılıqla məşğul olanlara isə əlavə olaraq 5 lirə subsidiya verilməsinə başlanıb.

Arıçılığın inkişafı həm də ümumilikdə kənd təsərrüfatının inkişafı deməkdir. Aparılan elmi tədqiqatlar göstərir ki, kənd təsərrüfatı bitkilərinin 75 faizinin inkişafı birbaşa tozlanma ilə bağlıdır. Arıçılıq vasitəsilə tozlanma dünya miqyasında intensiv yolla ərzaq istehsalının dəyərini 250 milyard dollara yaxın artırır. Həmçinin arıçılığın inkişafı bitkiçiliyin, bir sözlə, pozulan ekologiyanın bərpasında da mühüm rol oynayır.

Dünyada qəbul olunmuş normaya görə, adambaşına düşən bal istehlakı 0,45 kiloqramdır. Adambaşına düşən illik təbii bal istehlakı Almaniya, Türkiyə, Yeni Zelandiya, Avstriya kimi ölkələrdə 1-1,5, ABŞ, Fransa, Danimarka, Kanada, Böyük Britaniya kimi ölkələrdə 0,5-0,6 kiloqram arasında dəyişir. Pakistan, Hindistan, Misir, Malayziya və Braziliya kimi ölkələrdə istehlakın həcmi 0,01-0,12 kiloqram təşkil edir. Təəssüf ki, Azərbaycanda istehlakın həcmi barədə dəqiq statistik məlumat yoxdur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## İpək yolu üzərində yerləşən şəhərlərin növbəti beynəlxalq konfransı keçirilib

**Çinin Sian şəhərində davam edən Avrasiya İqtisadi Forumu çərçivəsində İpək Yolu İqtisadi Kəməri boyunca yerləşən şəhərlərin 7-ci beynəlxalq konfransı keçirilib. "Qarşılıqlı mənfəət üçün birgə əlaqələndirmə çağırışı" mövzusunda keçirilən konfransda Azərbaycanı Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.**

Sian şəhərinin meri Li Minyuan konfransın keçirildiyi şəhərlə "Bir kəmər, bir yol" strategiyasının tərkib hissəsi olan İpək Yolu İqtisadi Kəməri boyunca yerləşən ölkələrin müxtəlif şəhərləri arasında iqtisadi-ticari, humanitar, mədəni əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyətini vurğulayıb.

Tədbirdə təmsil olunan şəhərlər, o cümlədən Sumqayıta aid videoçarxlar nümayiş olunub. Sonra şəhər rəhbərlərinin çıxışları dinlənilib.

Azərbaycan-Çin əlaqələrinin tarixinin böyük İpək yoluna söykəndiyini diqqətə çatdıran Sumqayıt ŞİH başçısı Zakir Fərəcov Azərbaycan rəhbərliyinin Çin ilə ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət verdiyini, bu əlaqələrin bütün sahələrdə genişlənməsində maraqlı olduğunu bildirib. Qeyd edib ki, özünün yüksək inkişaf dinamikası və nümunəviliyi ilə seçilən Azərbaycan-Çin əlaqələri dostluq və qarşılıqlı etimada əsaslanır, çoxşaxəli ciddi tərəfdaşlıq münasibətləri kimi səciyyələndirilir.

Z.Fərəcov Çin dövlətinin başçısı Si Cinpinin təşəbbüsü ilə reallaşdırılan "Bir kəmər, bir yol" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən birinin də məhz Azərbaycan olduğunu vurğulayaraq, 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri zamanı iki ölkə arasında "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu imzalandığını yada salıb. Bildirib ki, cari ilin aprelində Pekində keçirilmiş 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak edən Prezident İlham Əliyev Azərbaycanın sözügedən təşəbbüsə tam dəstəyini bir daha nümayiş etdirib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası "Vahid Çin" prinsipinə hər zaman sadiq olub və bu xüsusda həmişə öz dəstəyini bildirib. Çin Xalq Respublikasının Azərbaycanın ərazi bütövlüyünə dəstəyini xalqımız yüksək qiymətləndirir.

## "Aqrolizinq"də taxıl biçininin yekunları və pambıq yığımına hazırlıq müzakirə olunub

**"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin inzibati binasında 2019-cu ilin taxıl biçininin yekunları və pambıq yığımına hazırlıqla bağlı müşavirə keçirilib.**

Tədbirdə taxıl biçini zamanı əldə edilən nailiyyətlər, yaranmış problemlər və onların həll olunması ilə bağlı görülən tədbirlər müzakirə olunub. ASC-nin sədri Elmin Rəhmanov taxıl biçininin artıq tam başa çatdığını bildirib. Biçin zamanı müsbət nəticələrin əldə edildiyini vurğulayan sədr bu uğurun komandanın birgə işinin bəhrəsi olduğunu diqqətə çatdırıb.

Müşavirə iştirakçıları pambıq sahələrində yığıma başlamaq üçün son hazırlıq işləri barədə də məlumatlandırılıb. "Aqrolizinq"in rəhbəri regional nümayəndəliklərə və rayon bölmələrinə pambıq yığımına hazırlıq prosesi və yığımla bağlı müvafiq tapşırıqlar verib.

Tədbirin sonunda yığım zamanı əldə etdikləri nailiyyətlərə görə bir sıra regional nümayəndəlik və rayon bölmələrinin rəhbərləri fəxri diplomlarla təltif olunublar.



## Ağcabədi kəndlisi uğurlara imza atır

Əvvəli 1-ci səh.

Rayonun suvarma sistemləri idarəsinin kollektivi olaraq fəxr edirik ki, kənd təsərrüfatı məhsulları istehsalında rayonumuzun əldə etdiyi nailiyyətlərdə az-çox bizim də əməyimiz var.

Əmək meydanında qazanılan hər bir uğurun mayasında torpaq, su və zəhmət dayanır. Əlbəttə, bu sahədə dövlətin güclü dəstəyi də həlledici amil sayılmalıdır. Dövlət başçısının tapşırıq və tövsiyələrini konkret fəaliyyət proqramı kimi qəbul edən rayon rəhbərliyi bütün qüvvələri bacarıqla səfərbər edərək ölkənin ərzaq təhlükəsizliyinə Ağcabədi kəndlisinin sanballı töhfələr verməsini təmin etmişdir. Bir-birindən uğurlu gələn illər sırasında cari ilin özünəməxsus yeri var.

Bu il 105,3 min ton taxıl istehsal edən "sarı kəhrəba" ustalarımız hər hektarın məhsuldarlığını əhali təsərrüfatlarında 49,2 sentnerə çatdırdılar. Cari ildə kümçülərimiz 54,5 ton barama tədarük etdilər ki, bu da keçən ildəkindən 17,4 ton çoxdur. Meyvə, bostan-tərəvəz məhsulları istehsalı uğurla davam edir. Rayonumuzda əsas kənd təsərrüfatı sahəsi olan pambıqçılığın inkişafına xüsusi fikir verilir. Bu istiqamətdə həyata keçirilən kompleks təşkilat-təsərrüfat tədbirlərinin nəticəsi sevindiricidir. Keçən il tarla bahadırlarımız 23,3 min ton "ağ qızıl" istehsal etmiş, hər hektardan 23,3 sentner məhsul götürmüşlər. Bu nəticə respublikada yüksək göstəricilərdən sayılır. Qazanılan nailiyyətlər qətiyyən arxayınçılıq yaratmır. Pambıqçılıqda yeni hədəflərə çatmaq uğrunda mübarizə bu gün də zərbəçi ahənglə davam edir. Cari ildə rayonun təsərrüfatlarında 10452 hektar sahədə pambıq əkilmişdir. Becərmədə aqrotexniki tələblərə ciddi əməl olunmuş, tarlalarda bol məhsul yetişdirilməsi təmin edilmişdir.

Artıq ağ örpəyə bürünmüş tarlaların ürəkaçan görkəmi bol məhsuldan xəbər verir. Yetişdirilən bol məhsulda rayon suvarma sistemləri idarəsinin kollektivinin də əməyi böyükdür. Biz aylardan bəri gərgin iş rejimi qrafiki ilə çalışmışıq. Gecəli-gündüzlü iş başında olaraq bir pambıq kolunu da susuz qoymamışıq. İndi ağ örpəkli, bol məhsullu tarlalara baxanda aylardan bəri çəkilən zəhmətin ağrı-acısını unuduruq.

Ağcabədi Rayon Suvarma Sistemləri İdarəsi balansında olan 2261 kilometr suvarma kanalı, 41 kilometr örtülü dren, 2489 hidrotexniki qurğu, 51 elektrik nasos stansiyası, 2 üzən nasos, 6 SNP markalı nasos vasitəsilə 65 min hektardan artıq əkin sahəsini suvarma suyu ilə təmin edir. İl ərzində 36291 hektar sahədə əkilmiş təsərrüfat bitkilərinin 2-3 dəfə suvarılmasına nail oluruq.

Torpaq istifadəçiləri ilə işgüzar münasibətlərimizi qorumağa çalışır, onların sifarişlərini təxirə salmadan operativ şəkildə yerinə yetiririk. Bu baxımdan su təsərrüfatı qurğularının daim saz və işlək vəziyyətdə olmasına böyük önəm veririk. Bu il 363 kilometr su kanalı lildən təmizlənmiş, 152 hidrotexniki qurğu, 14 hidrotexniki post, 9 ədəd nasos stansiyası təmir olunmuşdur. Hindarx, Salmanbəyli-9, Rəncbərlər, Şəfəq-1, Kəbirli-2, Kür qırağı, Muğanlı, Hüsülü-5, Sarıcalı, Sovxoz-1 nasos stansiyalarında müxtəlif təmir işləri görülmüşdür. Respublika "Meliorasiya və Su Təsərrüfatı" ASC də bütün müraciətlərimizə qayğı ilə yanaşır, idarənin zəruri mal-material və ehtiyat hissələri ilə təminatını yüksək səviyyədə yerinə yetirir.

Tarlalarda böyük zəhmət bahasına yetişdirilmiş bol məhsulun yığılmasına artıq start verilir. Heç şübhə yoxdur ki, hünərvər Ağcabədi kəndlisi öz zəfər salnaməsinə bu il yeni və parlaq səhifələr yazacaq. Bu elə bizim də uğurumuz olacaq.

***Malik MİRZƏYEV,***
***Ağcabədi Rayon Suvarma Sistemləri İdarəsinin rəisi***

# "Şəfəq-Asiman"ın ətraf mühitə təsiri ictimaiyyətlə birgə müzakirə olundu

**"Şəfəq-Asiman" kəşfiyyat-qazma layihəsinin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədləri ictimaiyyətlə birgə müzakirə olunub.**



Bu məqsədlə ƏMSSTQ-nın əvvəlcədən icmalı hazırlanıb və ictimaiyyətə təqdim edilib. İcmal nəzərdən keçirilmiş məsələləri, ətraf mühitə və sosial-iqtisadi sahəyə təsirlər barədə əsas yekunları açıqlamaq üçün nəzərdə tutulub.

"Şəfəq-Asiman" perspektiv strukturunun kəşfiyyatı və işlənməsi üçün Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) 2010-cu ilin oktyabr ayında BP və SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) arasında imzalanıb. Digər neft-qaz layihələrindən fərqli olaraq bu HPBS-də tərəfdaşlar çoxsaylı deyil. Yəni iştirak payları sözügedən iki şirkət arasında yarıya bölünür. Əməliyyatçı BP şirkətidir.

"Şəfəq-Asiman" müqavilə sahəsi Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan cənub-şərq istiqamətində təxminən 125 kilometrlik məsafədə yerləşir. 1995-ci ildə və 1999-cu ildə burada ikiölçülü seysmik tədqiqat işləri aparılıb. 2012-ci ildə isə üçölçülü seysmik tədqiqat həyata keçirilib. Strukturda kəşfiyyat quyusunun yerinin dəqiq müəyyənləşdirilməsində məhz seysmik tədqiqatların nəticələrindən istifadə edilib. Qazılması nəzərdə tutulan SAX01 quyusunun sahəsində suyun dərinliyi 624 metrdir. Qazma işlərinin bu ilin dördüncü rübündə başlanması planlaşdırılır. Quyu qazıldıqdan sonra onun konservasiya ediləcəyi və bir-üç illik fasilədən sonra orada sınaq aparılacağı nəzərdə tutulur.





Kəşfiyyat quyusunun qazılmasının dünyada ən müasir qazma qurğularından olan "Heydər Əliyev" səyyar dəniz qazma qurğusu ilə həyata keçiriləcəyi nəzərdə tutulur. Hazırda bu qurğu digər bir operator şirkətin istifadəsindədir və orada işləri tamamlayandan sonra "Şəfəq-Asiman"ın ərazisinə gətiriləcək.

Quyunun qazılması üçün alternativ variantlar qiymətləndirilib. Bu zaman BP-nin Xəzər dənizindəki kəşfiyyat quyularının qazılmasında əldə etdiyi zəngin təcrübədən istifadə olunub. Bununla yanaşı əsas variantın layihəsi də hazırlanıb. Həmin variantda texniki, iqtisadi, təhlükəsizlik və ətraf mühitlə bağlı bütün məqamlar nəzərə alınıb.

Üçölçülü seysmik məlumatların təhlilindən sonra kəşfiyyat quyusunun qazılacağı yer müəyyənləşdirilib. Bunun üçün "Şəfəq-Asiman" strukturunun ən çox potensial vəd edən ərazisi seçilib. Qazma işləri üçün səthdə, səthə yaxın qatlarda və yerin təkində olan təhlükələrin qiymətləndirilməsi də nəzərə alınıb. Qazma məhlulu seçilərkən isə adətən dənizdəki qazma işləri üçün istifadə olunan iki məhlul əsas götürülüb. Bunlar su əsaslı və qeyri-su əsaslı məhlullardır. Təcrübə göstərir ki, su əsaslı məhluldan quyu lüləsinin üst intervallarının qazması zamanı istifadə etmək səmərə verir. Qeyri-su əsaslı məhlul isə aşağı lülə intervallarının qazılması üçün daha münasibdir.

Xatırladaq ki, ƏMSSTQ prosesi layihənin həyata keçirildiyi müddətdə onunla əlaqədar fəaliyyətlərin qiymətləndirilməsinə sistemli yanaşma üsulunu təşkil edir. Bu prosesin ümumi məqsədi layihə fəaliyyətlərindən meydana gələn potensial mənfi ekoloji və sosial-iqtisadi təsirləri müəyyən etməkdən, azaltmaqdan və səmərəli şəkildə idarə etməkdən ibarətdir.

ƏMSSTQ məsələləri sözügedən HPBS-də də öz aydın əksini tapıb. Orada deyilir: "Podratçı neft-qaz əməliyyatlarını ətraf mühitin mühafizəsi standartlarına uyğun olaraq lazımi həssaslıqla səmərəli və təhlükəsiz şəkildə aparır. Məhdudiyyət qoymadan yerin üstü və təki, dəniz, hava, göllər, çaylar, flora və fauna, kənd təsərrüfatı bitkiləri, digər təbii ehtiyatlar və əmlak daxil olmaqla, bütövlükdə ətraf mühitin müvazinətinin hər hansı potensial pozuntularını minimuma endirmək üçün ətraf mühitin mühafizəsi standartlarına müvafiq surətdə bütün zəruri tədbirləri görür".

"Şəfəq-Asiman"ın ətraf mühitə təsiri müzakirə edilərkən ictimaiyyətin nümayəndələri də məhz bu məsələlər ətrafında fikir söylədilər. Onları maraqlandıran çoxsaylı suallar cavablandırıldı.

***Flora SADIQLI,***
***"Azərbaycan"***






# Gənclik






● Könüllülər

**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublika gənclərinin potensialının müasir dövrün tələblərinə uyğun inkişaf etdirilməsi ilə yanaşı, könüllülər hərəkatının da ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirakı istiqamətində ardıcıl işlər aparılır. Ölkə rəhbərinin dövlət orqanlarının fəaliyyətində könüllülərin xidmətlərindən geniş istifadə edilməsi tapşırıqları uğurla həyata keçirilir.**



# Müasir düşüncə - gələcəyə doğru atılan ilk addım

## Gəncliyin xidmət şəbəkəsi gündən-günə genişlənir

Artıq bir neçə xidmət sahəsi var ki, orada könüllülərin də fəaliyyətindən səmərəli istifadə hədəf kimi qarşıya qoyulub. Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən müasir düşüncəli gənc könüllülərin bu ictimai fəaliyyətə cəlb edilməsi, gələcəkdə onların daimi iş yerləri ilə təmin olunması, institusional bacarıqlarının artırılması, intellektual inkişafı və asudə vaxtlarının səmərəli təşkili ilə bağlı geniş tədbirlər görülməkdədir. Könüllülərlə iş birliyinin qurulması, gənclərlə birgə reallaşdırılan tədbir və layihələr əmlak idarəçiliyi sahəsində göstərilən dövlət xidmətlərinin tərkib hissəsinə çevrilib.

Əmlak Məsələləri Dövlət Komitəsinin İnformasiya, ictimaiyyətlə əlaqələr və protokol şöbəsinin müdiri Qulu Xəlilov bununla bağlı fikirlərini bölüşərkən qeyd etdi ki, komitə qarşısında qoyduğu “Müasir düşüncə - gələcəyə addım” hədəfinə çatmaq üçün əmlak idarəçiliyi sahəsində “Könüllü ol” proqramını reallaşdırmaqdadır: “Bu layihə çərçivəsində artıq 1400-ə yaxın gənc tələbə və məzun təşkil olunan könüllü fəaliyyət proqramında iştirakları üçün müraciət edib. İlk növbədə hər bir namizədlə fərdi görüşlər keçirilir, onların bilik və bacarıqları yoxlanılır. Artıq 43 nəfər gənc komitənin müvafiq qurumlarında könüllü fəaliyyətə cəlb edilib. Könülllü proqramında iştirak edən 144 nəfər isə komitənin müxtəlif qurumlarında işlə təmin olunub...”






### Mənəvi kamilliyə yüksəlişin yollarında

Respublikanın ali təhsil ocaqlarının tələbələri və məzunlarının da əmlak idarəçiliyi sahəsində könüllü fəaliyyətə cəlb edilməsi istiqamətində fəal iş aparılır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında, Azərbaycan Dövlət İqtisad Universitetində, Bakı Mühəndislik Universitetində, Bakı Dövlət Universitetində, Azərbaycan Memarlıq və İnşaat Universitetində, ümumilikdə 1000 nəfərədək məzun, tələbə və magistrlərlə də görüşlər keçirilib. Respublikanın regionlarında da “Könüllü ol” proqramında iştirak etmək istəyən gənclərlə sıx ünsiyyət qurulur: Gəncə, Göygöl, Şəmkir, Tovuz, Qazax, Mingəçevir, Lənkəran, Cəlilabad, Biləsuvar, Beyləqan, İmişli, İsmayıllı, Quba, Xaçmaz, Qusar, Şabran, bir sözlə, 40-dək şəhər və rayonda 700-ə yaxın gənc üçün “Əmlak Məsələləri Dövlət Komitəsində könüllü proqramı” mövzusunda seminarlar keçirilib. Bu görüşlərdə könüllülük fəaliyyətinin həyata keçirilməsi üçün müraciətlər də qəbul edilib. Regionlarda belə görüşlərin davamlı keçirilməsi nəzərdə tutulub.

Konullülərlə birgə iş prinsipinin daha rahat və müasir formada qurulması məqsədilə 2017-ci ildən komitənin internet resursunda “Könüllü fəaliyyəti” adlı xüsusi bölmə də var. Burada gənclər “Könüllü ol” bölməsinə daxil olaraq müraciətlərini elektron formada da komitəyə göndərə bilərlər. Onlarla 2-3 ay müddətinə könüllülük müqaviləsi bağlanır və fəaliyyətə başlayırlar. Bu müddət ərzində könüllülər üçün fərdi inkişafa hesablanmış müxtəlif təlimlər, seminarlar təşkil edilir. Onlar burada təcrübə keçir, təlimlərə cəlb olunurlar. Fəaliyyətlərini bitirən könüllülərə Əmlak Məsələləri Dövlət Komitəsinin rəsmi sertifikatı verilir.

Komitə tərəfindən həyata keçirilən sosial layihələrdə və beynəlxalq tədbirlərdə digər dövlət qurumlarında da fəaliyyət göstərən könüllülərin xidmətlərindən geniş istifadə edilir. Bu da gələcəkdə onların işlə təmin olunması nəticəsində gənclərin dövlətçilik ənənələri və vətənpərvərlik ruhunda formalaşmasına, sosial məsuliyyət hissinin güclənməsinə, yeni nəsil dövlət qulluqçularının yetişdirilməsinə öz töhfəsini verir.

### Vahid idman könüllüləri komandası

Könüllülük respublikamızda artıq institusion səviyyədə formalaşma prosesindədir. Əgər vaxtilə könüllülər yalnız ali təhsil müəssisələrində birləşirdilərsə, bu gün artıq bir sıra dövlət və qeyri-hökumət təşkilatlarının da nəzdində onların fəaliyyəti gözə dəyməkdədir. Hətta bir sıra xidmət təşkilatlarında bu məsələ aktuallığı ilə diqqəti cəlb etməkdədir.

Qeyri-hökumət təşkilatları öz fəaliyyətində könüllülərin xidmətindən istifadəni günün tələblərindən biri hesab edir və özlərinin proqram layihələrində bunu nəzərə alırlar.

Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin də nəzdində belə qruplar yaradılmaqdadır. Birliyin sədri Miraqil Seyidzadə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu idman siyasəti, bu sahənin inkişafına göstərilən dövlət dəstəyi nəticəsində əldə edilmiş nailiyyətlərin gündən-günə artmasından söz açarkən qeyd edib ki, könüllülük fəaliyyəti “Könüllü fəaliyyət haqqında” qanuna əsasən tənzimlənir.

O, 2019-cu ildə təsis edilmiş Azərbaycan İdman Könüllüləri İctimai Birliyinin də yaradılmasında əsas məqsədin ölkəmizdə idmanın və bədən tərbiyəsinin davamlı inkişafına dəstək vermək olduğunu deyib: “Bu birliyin yaradılmasında əsas məqsəd bundan sonra idman və bədən tərbiyəsi sahəsində könüllülük fəaliyyətinin əlaqələndirilməsi, gələcəkdə tədbirlərin keçirilməsində vahid idman könüllüləri bazasının formalaşdırılması, həmçinin bu sahədə işlərin daha keyfiyyətli və səmərəli təşkil olunmasıdır. İdman sahəsində təşkil edilən respublika və beynəlxalq yarışlarda könüllülərin xidmətlərindən geniş istifadə edilir. I Avropa, IV İslam Həmrəyliyi oyunlarını, 2014-cü ildən başlayaraq hər il təşkil olunan “Formula-1” Qran-prisini, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarını, UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final qarşılaşmasını və XV Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı bunun şahidinə çevrildik. Belə mötəbər yarışların təşkilində və keçirilməsində təşkilat komitələrinin fəaliyyətindən tutmuş oyunların keçirildiyi məkanlara qədər könüllülər yaxından iştirak ediblər”.

### Könüllülük gəncləri faydalı əməyə, insansevərliyə hazırlayır

Gənclər və İdman Nazirliyinin şöbə müdiri Fərid Mansurovun da qeyd etdiyi kimi, ölkəmizdə könüllülük fəaliyyətinin formalaşma prosesi sürətlə davam etdirilir. Buna səbəb olan məsələlər isə müxtəlifdir: “Ən əsası isə könülülük fəaliyyətinin məqsədi gəncləri faydalı əməyə, insansevərliyə təşviq etməsidir”.

Milli Olimpiya Komitəsinin İdman şöbəsinin müdiri Həsənağa Rzayev ölkəmizdə son illər keçirilən beynəlxalq tədbir və idman yarışlarında iştirak edən könüllülərin sayı barədə deyib ki, bu ənənə qədimdir, sadəcə bu gün o, müxtəlif formada geniş yayılmaq üzrədir: “Ölkəmizdə keçirilən I Avropa Oyunlarında 7 min, IV İslam Həmrəyliyi Oyunlarında 4 min, XV Avropa Gənclər Yay Olimpiya Festivalında isə 3 min nəfərlik Azərbaycan könüllüsü fəaliyyət göstərib. Prinsip etibarilə bu həm də mənəvi kamilliyə yüksəlişin yollarından biridir...”

***Məhəmməd NƏRİMANOĞLU, “Azərbaycan”***

● Tribuna

# Dövlət gənclərin potensialına, onlar da ölkə rəhbərinə güvənir

**Gənclər bu gün mərkəzi və yerli icra orqanlarında, o cümlədən beynəlxalq təşkilatlarda və şirkətlərdə çalışaraq, bilik və bacarıqlarını dövlətimizin möhkəmlənməsinə və inkişafına yönəldirlər.**



Gənclər siyasətinin vacib istiqamətlərindən biri də beynəlxalq təmsilçilikdir. Azərbaycan dövlətinin yürütdüyü xarici siyasət nəticəsində gənclər Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə yüksək tribunalardan çatdırır. Azərbaycan əhalisinin əksəriyyətinin gənclərdən ibarət olması ölkəmizin davamlı inkişafının təminatıdır. Ölkəmizin bundansonrakı inkişafı gənclərin potensialından maksimum istifadədən çox asılıdır. Gənclik də bunu nəzərə alaraq dövlətin yürütdüyü məqsədöynlü siyasəti dəstəkləyir və Azərbaycan Prezidentinin yürütdüyü daxili və xarici siyasətin ideoloji təbliğatçısına çevrilir.

Bu gün Azərbaycanın gələcəyi hesab edilən gənclərin üzərinə çox böyük vəzifələr düşür. Hər bir gənc vətənpərvər olmalı, vətənini sevməlidir. Vətənpərvər olmaq təkcə hərbi forma geyinib səngərdə dayanmaq deyil. Hər bir insanın vətənpərvərliyi öz sahəsində vətəninə, xalqına, millətinə vicdanla xidmət etməsidir.

Azərbaycan gəncliyi özünü heç də əbəs yerə xoşbəxt nəsil saymır. Bunun əsas səbəblərindən biri güclü, qüdrətli bir dövlətin azad vətəndaşı olmalarıdır. Bunun təməlini isə Ulu Öndər Heydər Əliyev qoyub. Bugünkü gənclik xoşbəxtdir ona görə ki, ölkə rəhbəri ona daha güclü, daha zəngin bir Azərbaycan bəxş edib.

Azərbaycan tarixdə bu qədər güclü olmayıb. Bəli, bu gücün mənbəyi müəllifi Ümummilli Lider Heydər Əliyev olan siyasət, xalqla iqtidarın birliyidir! Bu gücün mənbəyi həm də Azərbaycan xalqının, onun gəncinin dövlət başçısına ehtiramı, məhəbbətidir!

Bu gün hər bir Azərbaycan gənci Ali Baş Komandanın əsgəridir: ordu sıralarında, cəbhədə, səngərdə, ictimai həyatda, elmdə, təhsildə... Əgər Azərbaycanın müstəqilliyinə qarşı hər hansı bir təhdid olarsa, gənclər həmin “qüvvələri” tarixin siyasi səhnəsindən bir anda silməyə hazır və qadirdirlər!

Bu gün xalq tərəfindən tarixin arxivinə atılmış siyasətin tör-töküntüləri sosial medianın vermiş olduğu imkanlardan sui-istifadə edərək, xalqı çaşdırmağa, səhv, yalan, böhtan xarakterli məlumatlar yayaraq, insanlardakı Azərbaycana olan inamı itirməyə, ictimai-siyasi sabitliyi pozmağa cəhdlər göstərirlər. Amma bu gün Azərbaycan gəncliyi - Prezidentini, Vətənini sevənlər onları sosial şəbəkələrdə də iflasa uğradıblar.

Gənclərimiz bütün sahələrdə gedən inkişaf proseslərini yaxından izləyir və dövlətimizin əldə etdiyi nailiyyətlərlə qürur duyur. Dövlət başçısının rəhbərliyi ilə dövlətçiliyimiz, siyasi və iqtisadi müstəqilliyimiz daha da möhkəmlənib. Respublikamız beynəlxalq tədbirlərin, forumların, mötəbər idman yarışlarının keçirildiyi məkana çevrilib. Xalqımızın rifahının daha da yüksəldilməsi naminə görülən bütün işlər Azərbaycan gənclərində xoşbəxt gələcəyə olan inam və əminliyi artırır.

Bakı Dövlət Universitetinin tələbələri də dövlət gənclər siyasətindən yetərincə bəhrələnir. Onlar ölkədə keçirilən beynəlxalq tədbirlərdə könüllülük prinsipləri əsasında xidmət göstərməkdən məmnundurlar. Biz yalnız yaxşı oxumaqla kifayətlənməməli, həm də ölkəmizə layiqli vətəndaş olmağı bacarmalıyıq. Dövlətimiz biz gənclərin elmi nailiyyətlərə yiyələnməsi üçün bütün imkanları yaradıb. Gənclərimiz bu gün dünyanın ən məşhur elm ocaqlarında oxuyur və çalışırlar. Bu isə xalqımızın və dövlətimizin gələcəyi naminə çox böyük avantajdır. Biz tələbə-gənclər vətənimizi layiqincə təmsil etməyi şərəf bilməli, onun tanıdılmasında üzərimizə düşən vəzifələri dərk etməliyik.

***Cəmilə NƏCƏFZADƏ, BDU-nun Hüquq fakültəsinin II kurs tələbəsi***

● Birincilik uğrunda

# Mübarizədə formalaşan arzular

**Dövlət başçısının diqqət və qayğısı sayəsində 2012-ci ildə Qusar rayonunda şahmat məktəbi bərpa olundu. Tanınmış şahmat mütəxəssisi Həbib Ağalarovun rəhbərliyi altında az vaxtda uğurlu nəticələrə imza atıldı. Hazırda burada 7 qrupda 60 məktəbli bu qədim oyunun sirlərinə yiyələnir, ustalıqlarını artırır.**



Perspektivli və ümidverici yeniyetmə Aydın Şahpələngov 2013-cü ildən bəri Qusar Şahmat Mərkəzində bu qədim oyunun sirlərini öyrənməyə başlamışdır. O, 2014-cü il rayon birinciliyində üçüncü, 2015-ci ildə ikinci, 2016-cı ildə birinci yeri tutmuşdur. Fuad Cəfərovun xatirəsinə həsr olunmuş Bakı turnirində 14 yaşadək iştirakçılar arasında birinci, 2017-ci ildə keçirilmiş Uşaq-Gənclər Şahmat məktəbləri komandalarının respublika birinciliyinin zona yarışlarında üçüncü nəticə göstərmişdir.

Aydın bu ilin mayında keçirilmiş respublika birinciliyində isə 14-16 yaşadək oğlanlar arasında ikinci yeri tutub Avropa çempionatına vəsiqə qazanmışdır. O, avqustda Slovakiyada keçiriləcək Avropa birinciliyi uğrunda mübarizə aparacaq.

***Ravil BABAYEV, Qusar rayonu***

● İdman

# Cüdoçumuzun uğurları

Ölkəmizdə cüdoya həvəs göstərən gənclərin sayı ildən-ilə artır. Belə gənclərdən biri də Bakı şəhəri 6 saylı tam orta məktəbin şagirdi Əli Arzumanlıdır.




O, dərslərini yaxşı oxumaqla yanaşı, “Judo Club 2012” idman cəmiyyətində əməkdar idman ustası, usta cüdoçular arasında dördqat Avropa, ikiqat dünya çempionu Zaur Paşayevin rəhbərliyi altında idmanın bu növü ilə məşğul olur. Əli ötən il “Dinamo” İdman Cəmiyyətində Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş turnirdə yeniyetmə cüdoçular arasında birinci yerə, Qəbələ şəhərində 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş yarışlarda isə üçüncü yerə çıxmışdır.

Gənc cüdoçu yay tətili günlərində Türkiyə Respublikasının Trabzon Vilayət Gənclər və İdman İdarəsinin dəstəyi ilə Trabzon şəhərində keçirilən İkinci Qaradəniz Trabzon Cüdo Turnirinin iştirakçısı olmuşdur. Trabzon Qaradənizspor, Haçkaspor, Trabzon Böyükşəhər Bələdiyyəspor və Azərbaycan klublarından ibarət ümumilikdə 180 idmançının qatıldığı bu möhtəşəm turnirdə Əli Arzumanlı ölkəmizin idman şərəfini ləyaqətlə qorumuşdur. O, 34 kiloqram çəki dərəcəsində rəqiblərinə qalib gələrək birinci yerə layiq görülmüşdür.

Azərbaycan bayrağının və Dövlət himnimizin sədaları altında Əli Arzumanlıya turnirin qalibi mükafatı təqdim olunmuşdur. Gənc cüdoçunun uğurlu çıxışları və qələbəsi barədə Türkiyədə çıxan gündəlik “Günəbaxış” qəzetində yazı da dərc edilmişdir.

***“Azərbaycan”***

● Layihə

# İsmayıllıda “İstedad bankı”

**Respublikamızın kənd rayonları arasında təhsilin səviyyəsinə, keyfiyyət göstəricilərinə və elm adamlarının sayına görə İsmayıllı həmişə seçilib. Arxada qalan dövr ərzində də rayonda təhsil sahəsində inkişaf davam etdirilib. Əsaslı şəkildə müsbət dəyişikliklər baş verib. Rayon Təhsil şöbəsinin müdiri Rasim Orucov deyir ki, son illər yeni məktəb binalarının tikintisi də geniş vüsət alıb və ümumilikdə 1400 şagird yerlik 11 yeni məktəb binası istifadəyə verilib.**





Prezident İlham Əliyevin sərəncamı ilə Lahıc qəsəbə tam orta məktəbi üçün 400 şagird yerlik müasir bina tikilib və keçən ilin avqust ayında dövlət başçısı rayona səfər edərkən məktəbin açılışı olub.

Eyni zamanda Gəndov kənd ümumi orta məktəbi üçün quraşdırılan modul tipli məktəb binası yeni dərs ilinin ilk günlərində istifadəyə verilib. Paralel olaraq Uştalqışlaq kənd tam orta, Girk kənd ümumi orta məktəblərinə modul tipli, Basqal qəsəbə tam orta məktəbi üçün isə yeni bina tikilməkdədir.

Həmçinin qeyd etmək lazımdır ki, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilin məktəbəhazırlıq mərhələsinə xüsusi yer verilib. Bu sahənin inkişaf etdirilməsi başlıca vəzifə kimi irəli sürülüb. Rayonda uşaqların məktəbəqədər təhsilə cəlb edilməsi faizi aşağı olduğundan məktəbə hazırlığa ciddi ehtiyac vardır. Hesab edilir ki, Prezident İlham Əliyevin sərəncamı ilə rayonda tikilməkdə olan 100 yerlik yeni uşaq bağçası məktəbəqədər yaşlı uşaqların məktəbə hazırlığında çox böyük əhəmiyyətə malik olacaq.

Rayon ümumtəhsil məktəblərində “Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı”nın yerinə yetirilməsi istiqamətində sistemli iş aparılır və uğurlu nəticələr qazanılır.

Rayon Təhsil Şöbəsi rayonun ayrı-ayrı məktəblərində aşkar edilmiş istedadlı şagirdlər haqqında məlumatları toplayaraq “İstedad bankı” yaradıb. Bu istiqamətdə sistemli iş təşkil edilib. Nəticədə rayonun istedadlı şagirdləri müxtəlif səviyyəli yarış və müsabiqələrdə uğurlu nəticələr qazanıblar.

Respublika fənn olimpiadalarının yarımfinal mərhələsində rayon ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri uğurla iştirak ediblər. Yarımfinal mərhələsinin qalibi olmuş 9 ən istedadlı şagird finala vəsiqə alıb.

Təhsil Nazirliyinin Rusiya səfirliyi ilə birgə Heydər Əliyev adına İvanovka kənd tam orta məktəbində keçirdiyi rus dili olimpiadasında rayonun 19 ümumtəhsil məktəbinin 62 istedadlı şagirdi iştirak edib. İlkin məlumatlara görə, şagirdlərin nəticələri yüksək olub.

Ulu Öndər Heydər Əliyevin 96-cı ildönümü münasibətilə respublika üzrə keçirilən “Ən yaxşı təqdimat” müsabiqəsində iştirak edən Təzəkənd kənd tam orta məktəbin şagirdi Gülsüm Əsgərli qaliblər sırasında yer tutub.

“Ədəbiyyat biliciləri” respublika müsabiqəsində şəhər 3 nömrəli məktəb-liseyin şagirdi Jalə Abdurazaqlı və şəhər 6 nömrəli tam orta məktəbin şagirdi Ləman Zeynalova uğurlu nəticə əldə ediblər.

Rayonda “Hər şagird bir istedaddır” devizi altında VIII-XI sinif şagirdlərinin “Müstəqilliyimiz əbədidir”, “Bayrağımız qürur mənbəyidir”, “Konstitusiyam həyat qanunumdur”, aprel şəhidlərinin xatirəsinə həsr edilmiş “Vətən mənə oğul desə...” inşa yazı müsabiqələri keçirilib və qaliblər mükafatlandırılıb. Keçirilən şeir müsabiqələri və dram festivalı istedadlı şagirdlərin üzə çıxarılmasında əhəmiyyətli rol oynayıb.

İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr edilmiş intellektual yarışların birinci mərhələsində rayonun tam orta məktəblərinin komandaları iştirak edib. Yüksək rəqabət şəraitində keçən yarışların qalibi olmuş şəhər 6 nömrəli tam orta məktəbin komandası növbəti mərhələdə iştirak etmək hüququ qazanıb.

Rayon Təhsil Şöbəsi yeni təyin olunmuş gənc müəllimlərə qayğı ilə yanaşaraq ilk növbədə onların sosial problemlərinin həllini diqqətdə saxlayıb. RTŞ-da fəaliyyət göstərən “Gənc müəllimlər şurası”nın keçirdiyi tədbirlər gənc müəllimlərin pedaqoji, metodiki biliklərinin, təcrübələrinin artırılmasına xidmət edib.

Hesabat dövründə ayrı-ayrı təhsil müəssisələrini təmsil edən müəllimlər beynəlxalq əlaqələri davam etdirməklə yeni uğurlara imza atıblar.

“e Twinning Plus” layihəsi çərçivəsində şəhər 1 və 5 nömrəli tam orta məktəbləri “Avropa məktəbi” adına layiq görülüb. Bu yaxınlarda Türkiyə Respublikasının İzmir şəhərində keçirilmiş kontakt-seminarda şəhər 5 və 6 nömrəli tam orta məktəblərin müəllimləri iştirak ediblər.

Görünən odur ki, hazırda ölkənin təhsil sistemi etibarlı əllərdədir. Bunu İsmayıllı təhsilinin timsalında aydın şəkildə müşahidə etmək mümkündür.

***Əli SƏLİMOV, “Azərbaycan”***

# "Azərenerji" ASC "Cənub" Elektrik Stansiyasına 26 km məsafədə qaz kəməri çəkib



"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti "Reabilitasiya proqramı"na uyğun olaraq Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasına Hacıqabul rayonunda yerləşən qazpaylayıcı stansiyadan 26 kilometr məsafədə 530 millimetrlik borularla yeni qaz kəməri çəkib və artıq istismara verib.

Qeyd edək ki, bugünə qədər "Cənub" Elektrik Stansiyasında hər birinin gücü 5,7 meqavat olmaqla 2 ədəd qaz kompressoru işləyirdi və onlar turbinə ötürmək üçün qazın təzyiqini 13 atmosferdən 28 atmosferə qədər qaldırmalı olurdu. Buna görə həm stansiyanın işində problemlər yaranır, həm də orta hesabla ay ərzində 8 milyon kilovatsaat elektrik enerjisinin sərfinə gətirib çıxarırdı. Yeni xətt istismara verildiyindən indi qaz kompressora deyil, birbaşa turbinə daxil olur və həmin kompressorların işləməsinə ehtiyac qalmır. Bununla da ilk növbədə "Cənub" Elektrik Stansiyasının etibarlılığı və dayanıqlılığı artır, eyni zamanda istehsal prosesində sərf edilən aylıq 8 milyon kilovatsaat elektrik enerjisinə qənaət edilir və əvəzində həmin elektrik enerjisi ümumi sistemə ötürülür.

Bugünə qədər "Reabilitasiya proqramı" çərçivəsində "Cənub" Elektrik Stansiyasından "Xırdalan" yarımstansiyasına 108 km məsafədə 220 kV-luq yüksəkgərginlikli yeni elektrik verilişi xətti çəkilib. Bu isə Bakı şəhərinin elektrik enerjisi ilə təchizatının etibarlılığını və dayanıqlılığını gücləndirib. Eyni zamanda ötən il iyul ayının 3-də enerji sistemində baş verən qəza nəticəsində sıradan çıxan 330/220/6 kV-luq avtotransformator təmir edilərək "Cənub" Elektrik Stansiyasındakı yerinə quraşdırılıb. Ümumilikdə "Cənub" Elektrik Stansiyasının qazanlar, turbinlər və başqa avadanlıqlarda həyata keçirdiyi təmir-sazlama işləri nəticəsində stansiyanın gücü 520 meqavatdan 720 meqavata qaldırılıb və bununla da 200 meqavat "itirilmiş" güc bərpa olunub.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Energetika Nazirliyi
## *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:

**24 oktyabr 2019-cu il tarixdə Bakı şəhərində "Texnoloji və siyasi yeniliklər ilə enerji keçidinin təmin edilməsi" adlı Beynəlxalq Enerji Xartiyası Forumunun keçirilməsi məqsədilə xidmətlərin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Heydər Əliyev prospekti, 152 ünvanında yerləşən "Çinar Plaza" İş Mərkəzinə məxsus binanın 12-ci mərtəbəsində yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Elçin Mehrəliyev (telefon: 598-16-53/54 - daxili 1132)

**İştirak haqqı 350 manat.**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**Bank rekvizitləri: Dövlət Xəzinədarlıq Agentliyi**
**Kod: 210005**
**VÖEN:1401555071**
**M/h: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Alan: Energetika Nazirliyi**
**VÖEN: 1300087531**
**Hesab №: AZ44CTRE00000000000002218301**
**Təyinatı: Tenderdə iştirak haqqı**
**Energetika Nazirliyi**
**XHK 2218301**
**Büdcə səviyyəsinin kodu: 7**
**İqtisadi təsnifat: 142340**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin **1 faizi** həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı **60** bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Satınalma predmetinin ehtimal olunan qiyməti 3,0 milyon ABŞ dollarının manat ekvivalentində və ya ondan aşağı olan malların (işlərin, xidmətlərin) satın alınması yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə, açıq tender üsulunu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilir.

Sənədlər Azərbaycan dilində onlayn formada (etender.gov.az) təqdim olunur.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri **(tender təklifi və bank təminatı istisna olmaqla) 26 sentyabr 2019-cu il saat 12:00-a** qədər, tender təklifi, bank təminatını isə onlayn formada **11 oktyabr 2019-cu il saat 12:00-a** qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 oktyabr 2019-cu il onlayn şəkildə saat 16:00-da** www.etender.gov.az saytında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*"Azərişıq" ASC "Külək elektrik stansiyalarında çalışan işçilərin təhlükəsizliyinin qorunması məqsədilə tələb olunan müxtəlif xilasetmə dəstlərinin" satın alınması üzrə kotirovka sorğusu keçirir*

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 16 sentyabr 2019-cu il saat 15:00-dək aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan: Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8. Əlaqə telefonu: (012) 440-39-93 (23-32).**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*"Azərişıq" ASC "Külək elektrik stansiyalarında quraşdırılmış külək enerjili elektrik qurğularının daimi işlək vəziyyətdə saxlanması məqsədilə xüsusi tədris kursu dəstinin" satın alınması üzrə kotirovka sorğusu keçirir*

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 16 sentyabr 2019-cu il saat 15:00-dək aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan: Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8. Əlaqə telefonu: (012) 440-39-93 (23-32).**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*"Azərişıq" ASC "Fiber optik kabel və muftaların" satın alınması üzrə kotirovka sorğusu keçirir*

Kotirovka sorğusu müsabiqəsində iştirak etmək istəyən iddiaçılar öz sənədlərini 16 sentyabr 2019-cu il saat 15:00-dək aşağıdakı ünvana təqdim etməlidirlər.

**Ünvan: Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8. Əlaqə telefonu: (012) 440-39-93 (23-32).**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı
## *kotirovka sorğusu elan edir*

Mərkəzi Banka məxsus Bakı şəhəri, M.Seyidov küçəsi, 20 A ünvanında yerləşən inzibati binanın mühafizəsinin təşkil edilməsi ilə bağlı satınalma

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar.

Kotirovka sorğusu üzrə möhürlənmiş və imzalanmış təklif zərfi 23 sentyabr 2019-cu il saat 18:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 24 sentyabr 2019-cu il saat 10:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

**Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Xəyal Yusifli, telefon - 493-11-22 (daxili 379).**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

11 sentyabr 2019-cu il tarixdə elan olunmuş Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxs (DOST Agentliyi) tərəfindən yumşaq inventarın və xüsusi geyimlərin satın alınması üzrə kotirovka sorğusunun davamından imtina edilir.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## La-Manşı keçməyə cəhd edən 86 miqrant saxlanıldı



Kiçik qayıqlarla Fransadan Böyük Britaniyaya üz tutan 86 miqrant La-Manş boğazını keçməyə cəhd edərkən həbs olunmuşdur. Bu barədə Birləşmiş Krallığın Daxili İşlər Nazirliyi məlumat vermişdir. Məlumatda qeyd edilir ki, birdəfəyə 86 miqrantın yaxalanması rekord göstəricidir.

Britaniya sahilinə yaxınlaşan dörd qayıq saxlanılmışdır. Miqrantların başqa iki qrupu həbs olunmazdan əvvəl sahilə çıxa bilmişdi. Britaniya Daxili İşlər Nazirliyi bildirmişdir ki, bu təhlükəli və qanunsuz təzahürə qarşı çıxaraq Fransa hakimiyyət orqanları ilə bütün səviyyələrdə əməkdaşlıq edir.

Ötən il Britaniyanın Daxili İşlər naziri Priti Patel və onun fransız həmkarı Kristof Kastaner boğazı kiçik qayıqlarla keçmək hallarını azaltmaq məqsədilə birgə tədbirləri fəallaşdırmaq barədə razılığa gəlmişlər. Londonun məlumatına görə, əvvəllər Böyük Britaniyaya qanunsuz gəlmiş 65 miqrant cari ilin yanvarından sentyabrınadək Avropanın başqa ölkələrinə deportasiya olunmuşdur.

## BMT Hindistanı Kəşmirdə sakinlərin hüquqlarını pozmamağa çağırır



BMT-nin üzvü olan 50-dən çox ölkə Hindistanı Cəmmu və Kəşmir regionunda insan hüquqlarını pozmağı dayandırmağa çağırmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Dövlətlərin BMT İnsan Hüquqları Şurasının 42-ci sessiyasında səsləndirilmiş birgə bəyanatında deyilir ki, Hindistanın idarə etdiyi Cəmmu və Kəşmirdə insan hüquqları və humanitar vəziyyətin pisləşməsi İnsan Hüquqları Şurasının və hüquq müdafiə mexanizmlərinin məsələyə təcili reaksiya verməsini tələb edir. Sənəddə həmçinin Cəmmu və Kəşmirdə komendant saatını dərhal ləğv etmək, kommunikasiyalara, o cümlədən internetə çıxışı bərpa etmək və siyasi məhbusları azadlığa buraxmaq çağırışı yer alır.

Hindistan hökuməti ötən ayın 5-də konstitusiyanın 370-ci maddəsinə düzəliş etmək yolu ilə Cəmmu və Kəşmir ştatının xüsusi muxtar statusunu ləğv etmək təşəbbüsü ilə parlamentə müraciət etmişdir. Parlament təşəbbüsü dəstəkləmiş və bu, Pakistanın kəskin reaksiyasına səbəb olmuşdur. Rəsmi İslamabad Hindistanı BMT Təhlükəsizlik Şurasının qətnamələrini pozmaqda ittiham etmiş və cavab tədbirləri görməyə hazır olduğunu bildirmişdir.

## Avstraliyanın üç vətəndaşı İranda həbs edilib



Avstraliyanın üç vətəndaşı İranda həbs olunmuşdur. Bu barədə Böyük Britaniyanın "The Guardian" qəzeti xəbər verir.

Məlumata görə, saxlanılanlardan biri Avstraliya universitetinin müəllimidir. Qəzetin mənbələri qeyd etmişlər ki, qadın bir neçə ay əvvəl həbs edilib. Digər iki avstraliyalı - qadın-bloger və onun yoldaşı bir neçə həftə əvvəl ölkəni gəzərkən saxlanılmışdır. Həbs edilənlərdən ikisinin həm də Böyük Britaniya vətəndaşı olmasına baxmayaraq, Avstraliya hökuməti üç məhbusun hamısının azadlığa buraxılması şərtləri barədə Tehranla danışıqlar aparır. Avstraliya Xarici İşlər və Ticarət Departamentinin nümayəndəsi təsdiqləmişdir ki, departament İranda saxlanılmış üç avstraliyalının ailələrinə konsul köməyi göstərir.

## Çin ABŞ-ın bəzi mallarını gömrük rüsumundan azad etdi



Çin hökuməti sentyabrın 17-dən etibarən ABŞ-ın 16 malına qoyduğu 25 faizlik gömrük rüsumlarını ləğv etmək qərarına gəlmişdir. Bu barədə "Bloomberg" agentliyi ÇXR Dövlət Şurasının gömrük tarifləri komitəsinə istinadən xəbər verir. Rüsumlar ötən il tətbiq olunmuşdu.

Siyahıya ABŞ ixracatının mühüm maddələri - soya, donuz əti və qarğıdalı daxil edilməmişdir. Komitə rüsum qoyulmayacaq yeni mal siyahılarını nəzərdən keçirir. Yeni istisnalar bir müddət sonra açıqlanacaq.

## Türkiyənin cənub-şərqində ağır yol-nəqliyyat qəzası




Türkiyənin cənub-şərqində, Bitlis vilayətində mikroavtobusun qəzaya düşməsi nəticəsində 10 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır. Bu barədə "Hürriyyət" qəzeti Bitlis valisi Oqtay Çağataya istinadən xəbər verir.

Vali əlavə etmişdir ki, hadisə vilayətin Kalkanlı yaşayış məntəqəsində baş vermişdir. Yaralılar yerli xəstəxanalara çatdırılmışdır.

NTV telekanalının xəbərinə görə, mikroavtobus kənd sakinlərini yaxınlıqdakı Hizan şəhərinə aparırmış. Ölənlərin altısı uşaqdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Təlatüm Quliyev və Ümumi şöbənin əməkdaşları Milli Məclisin İşlər idarəsinin Rabitə sisteminə xidmət sektorunun müdiri Elmir Həsənova qardaşı

**ETİBAR HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri İlqar Fərzəliyev və şöbənin əməkdaşları Milli Məclisin İşlər idarəsinin sektor müdiri Elmir Həsənova qardaşı

**ETİBAR HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Müdafiə nazirinin birinci müavini, Baş Qərargah rəisi Nəcməddin Sadıkova bacısı

**SİMA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Aydın Əliyev Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynova qızı

**XUMAR XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının əməkdaşları professor Mətanət Abdullayevaya anası

**SARA XANIM AĞAMİROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9033
Sifariş 3007
Qiyməti 40 qəpik